# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin orqanı

№ 01-02 (498)

31 yanvar 2012-ci il | Qəzet 1991-ci ildən nəşr olunur | www.health.gov.az


## Nazirlər Kabineti səhiyyə ilə bağlı qərarlar qəbul edib

### Mərkəzi Neftçilər Xəstəxanası və 10 Müalicə-Diaqnostika Mərkəzi Səhiyyə Nazirliyinin tabeçiliyinə verildi



Səh. 2

Əziz Əliyevin anadan olmasının 115 illiyinə həsr edilmiş elmi konfrans



4

«Görülən işin göstəricisi konkret əməllərdir»



3

Tibbi xidmət gözəldi, şərait də düzəldi!



10



Arif Babayev: «Savadlı həkimlər cəmiyyət üçün ən lazımlı insanlardır»

12

389 qutu yararsız dərman!



9




# Nazirlər Kabineti səhiyyə ilə bağlı qərarlar qəbul edib



Azərbaycan Respublikası Nazirlər Kabineti ötən ilin sonunda və bu ilin əvvəlində səhiyyə məsələləri ilə əlaqədar bir neçə qərar qəbul edib. Bu sənədlərdən birincisinə əsasən, Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) Sosial İnkişaf İdarəsinin balansında olan Mərkəzi Neftçilər Xəstəxanası, habelə Lənkəran, Şirvan, Qəbələ, Füzuli, Quba, Qazax, Bərdə, Cəlilabad, Zaqatala və Şamaxı Müalicə-Diaqnostika Mərkəzləri onlara məxsus olan daşınmaz və daşınar əmlakla birlikdə Səhiyyə Nazirliyinin balansına keçirilib. Qərara görə, ARDNŞ-in balansında olan 240 çarpayılıq xəstəxananın yarımçıq tikilisi də Səhiyyə Nazirliyinə verilib. Sənəddə Səhiyyə Nazirliyinə tapşırılıb ki, adı çəkilən tibb müəssisələrində çalışan işçilərin əmək münasibətlərinin tənzimlənməsini təmin etmək üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görsün.

Azərbaycan Respublikası Nazirlər Kabineti həmçinin özünün "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2011-ci il 17 noyabr tarixli 187 nömrəli qərarında dəyişiklik edib. Belə ki, həmin qərarla təsdiq edilmiş "İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"na "Mərkəzi Klinika" MMC də əlavə olunub. Bu klinikada böyrəklərin, qaraciyərin, ürək, ürək-ağciyər kompleksinin, mədəaltı vəzi və seqmentlərinin, 12-barmaq bağırsaqla birlikdə mədəaltı vəzinin, gözün buynuz qişasının və sümük iliyinin transplantasiyasının həyata keçirilməsinə icazə verilib.

# Ağdamda yeni səhiyyə ocaqları istifadəyə verildi

Azərbaycan Prezidenti İlham Əliyevin "Ağdam rayonunda əhalinin səhiyyə xidməti ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2009-cu il 25 noyabr tarixli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan ayrılmış vəsaitlə rayonun Quzanlı qəsəbəsində inşa edilmiş yeni Uşaq Xəstəxanası və Doğum Evi, həmçinin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası istifadəyə verilib.

Açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı Nizami Sadıqov və Ağdam Mərkəzi Rayon Xəstəxanasının baş həkimi Gülnar Abbasova da tibb işçiləri üçün yaradılan şərait, quraşdırılan müasir tibbi



sakinləri yeni tibb ocaqlarının istifadəyə verilməsi münasibətilə təbrik edib, göstərilən yüksək qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, yeni səhiyyə ocaqlarında avadanlıq rayon əhalisinə göstərilən səhiyyə xidmətinin səviyyəsini daha da artırmağa, onların kənara getmədən, rayonun özündə lazımi müalicə almalarına imkan yaradacaq.

Rəmzi açılışı bildirən lent kəsildikdən sonra iştirakçılar binalarda yaradılan şəraitlə tanış olublar. Zirzəmi qatı ilə birlikdə dörd mərtəbədən ibarət olan Uşaq Xəstəxanası və Doğum Evinin hər biri 15 çarpayılıqdır. Səhiyyə ocaqları ən müasir tibbi avadanlıq və mebellə, mərkəzləşdirilmiş istilik və oksigen sistemləri, habelə qida və dərman preparatları ilə təchiz edilib.

Uşaq Xəstəxanası laboratoriya, poliklinika, müayinə və fizioterapiya otaqları, palatalardan, Doğum Evi laboratoriya, doğuş bloku, cərrahi blok, doğuş kabinələri, ginekoloji kabinetlər, USM, reanimasiya, palatalar və sairdən ibarətdir.

Tibb ocaqlarının həyətlərində geniş abadlıq işləri aparılıb.

# İSİM-də ictimai səhiyyənin inkişaf istiqamətləri müzakirə olundu

Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) keçirilən təşkilatlararası iclasda ictimai səhiyyənin inkişafı istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə fikir mübadiləsi aparılıb. İclasda Respublika QİÇS-lə Mübarizə Mərkəzi, Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Uşaq Fondu və digər təşkilatların nümayəndələri təmsil etdikləri qurumların fəaliyyəti barədə məlumat veriblər.

Görüşdə İSİM-in direktoru Ceyhun Məmmədov Demoqrafiya və sağlamlıq sorğusu üzrə görülən işlərdən danışıb, Səhiyyə Nazirliyinin kollegiya iclasında 2 klinik protokolun təsdiqləndiyini, digər klinik protokollar üzərində isə işlərin davam etdiyini nəzərə çatdırıb, qan donorluğu ilə bağlı hazırlanacaq plakat haqqında söhbət açıb.

İclasda, həmçinin "Azərbaycanda səhiyyənin gücləndirilməsi" layihəsinin fəaliyyət istiqamətləri təqdim edilib. Bildirilib ki, layihə Bakı, Gəncə şəhərlərini, Abşeron, Ağdaş, İsmayıllı, Qəbələ, Qax, Şəki və Zaqatala rayonlarını əhatə edəcək.

## Xəbərlər

Ötən ilin sonunda Bakıda 6 tibb müəssisəsinin açılışı olub. Belə ki, Xəzər rayonundakı 35 saylı Kardiorevmatoloji Sanatoriya, Xətai rayonundakı 2 saylı Uşaq Poliklinikası, Nizami rayonundakı 19 saylı Uşaq Poliklinikası, Binəqədi rayonu 28 May qəsəbəsində həkim məntəqəsi, Qaraçuxur qəsəbəsində 15 saylı Birləşmiş Şəhər Xəstəxanasının poliklinikası və Psixi Sağlamlıq Mərkəzi əsaslı təmir və yenidənqurma işlərindən sonra əhalinin istifadəsinə verilib. Səhiyyə müəssisələrinin hər biri texnoloji nailiyyətlərə əsaslanan avadanlıq və cihazlarla təchiz olunub.

***

Səhiyyə Nazirliyinin "Qaynar xətt" xidmətinə (565-12-64; 595-40-15; 595-35-39) ötən il fevralın 24-dən ilin sonuna kimi 7297 müraciət daxil olub. Onların 3682-si (908-i əsaslı, 2774-ü isə əsassız) şikayət, 2049-u sorğu xarakterli, 403-ü aidiyyəti üzrə olmayan, 1163-ü isə cari problemlərlə bağlı olub.

"Qaynar xətt" xidmətinə daxil olmuş bütün müraciətlər mütəxəssislər tərəfindən dinlənilib, qeydə alınıb və araşdırılıb. Bütün şikayətlər barədə müvafiq tədbirlər görülüb.

***

Azərbaycan Kardiologiya Cəmiyyəti ürək həkimlərinin biliklərini təkmilləşdirmək məqsədi ilə fevralın 10-dan Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda iki aylıq "Kliniki elektrokardioqrafiya" kursu keçirəcək. Kursda Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrinin kardioloqları iştirak edəcəklər.

***

Naxçıvan Tibb Kollecində "Heydər Əliyev və milli dəyərlərimiz" mövzusunda tədbir keçirilib.

Məruzə ilə çıxış edən kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İlhamə Mustafayeva ulu öndərin xalqımız qarşısında göstərdiyi əvəzsiz xidmətlərdən danışıb.

Sonra mövzu ilə bağlı müzakirələr aparılıb.

***

Beyləqan şəhərindəki Heydər Əliyev muzeyində "Heydər Əliyev və Azərbaycan səhiyyəsi" mövzusunda elmi-praktik konfrans keçirilib. Tədbirdə rayon icra hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət üzrə müavini Raisə İsgəndərova mövzu ilə bağlı məruzə edib. Çıxışlarda ümummilli lider Heydər Əliyevin zəngin və mənalı həyat yolundan bəhs edilib, ulu öndərin Azərbaycan səhiyyəsinin inkişafındakı əvəzsiz xidmətlərindən danışılıb.

# «Görülən işin göstəricisi konkret əməllərdir»

## Bunu «Tibb qəzeti»nə eksklüziv müsahibəsində Azərbaycan səhiyyə naziri Oqtay Şirəliyev dedi

***2011-ci ili yola saldıq. O, nə ilə yadda qaldı, yeni ildə səhiyyəmizi hansı yeniliklər gözləyir? Bu barədə mülahizələrini bizimlə Azərbaycan səhiyyə naziri, professor Oqtay Şirəliyev bölüşdü. O, hamını maraqlandıran suallarımıza cavab vermək üçün öz gərgin iş qrafikində bizə lütfkarlıqla vaxt ayırdı.***



**- Cənab nazir, bugünkü Azərbaycan səhiyyəsini necə qiymətləndirirsiniz?**

- Özünün cavabdeh olduğun bir qurumun işinə qiymət vermək çox çətindir. Kimisi mənim verdiyim qiyməti obyektiv hesab edəcək, kimisi isə yox. İstənilən halda, hər bir fikir subyektivdir. Ona görə də görülən işin göstəricisi konkret əməllərdir. Məsələn, 6 il əvvəl ölkədə klinikalar və tibbi avadanlıq bərbad vəziyyətdə idi, bu gün onlar dünya standartlarına cavab verir. Əvvəllər stasionarlarda xəstələrə yeməyi və dərmanları evdən gətirirdilər, bu gün onlar dövlət hesabına keyfiyyətli qida ilə və lazımi preparatlarla təmin olunurlar. Yeri gəlmişkən, xəstəxanalarda ödənişsiz verilən dərman vasitələrinin siyahısı bu yaxınlarda 60-dan 166-dək genişləndirilib. Əgər əvvəllər hemodializə ehtiyacı olanlar bu həyati vacib prosedurun haqqını ödəyə bilmədiklərinə görə həyatlarını itirirdilərsə, bu gün onlar ödənişsiz hemodializ ala bilirlər, özü də bölgələrdən olan xəstələr bunun üşün Bakıya gəlməli olmurlar. Şəkərli diabet xəstələri də dərmanlarla və qlükometrlərlə təmin edilirlər. Bu gün dövlət xəstəxanalarında ürək əməliyyatları, böyrəkköçürmə əməliyyatları və digər mürəkkəb cərrahi müdaxilələr həyata keçirilir.

Azərbaycan mütəxəssislərinin ən yaxşı xarici klinikalarda öz professional bilik və bacarıqlarını təkmilləşdirməsi üzrə proqramlar da artıq öz bəhrəsini verir.

Səhiyyə sahəsində həyata keçirilmiş islahatları uzun-uzadı sadalamaq olar, amma güman edirəm ki, buna ehtiyac yoxdur. Açıq-aşkar olanı sübut etmək artıq işdir.

**- Bu yaxınlarda Nazirlər Kabineti Mərkəzi Neftçilər Xəstəxanasının və bölgələrdə yerləşən müalicə-diaqnostika mərkəzlərinin Səhiyyə Nazirliyinin tabeçiliyinə verilməsi barədə qərar qəbul etdi. Belə bir qərarın qəbulu hansı ehtiyacdan yaranmışdı?**

- Regional diaqnostika mərkəzləri Dövlət Neft Şirkəti (ARDNŞ) tərəfindən tikilib. Məlum olduğu kimi, bu mərkəzlərin təminatı böyük xərc tələb edir: kommunal ödənişlərə, bahalı avadanlığa, müntəzəm servis xidmətinə, dərmanların alınmasına, müvafiq kadrların hazırlanmasına, tibbi personalın yüksək maaşına və s. İlk vaxtlar bu xərcləri ARDNŞ özü çəkirdi. Lakin səhiyyənin büdcədən maliyyələşməsi mütəmadi artdığına görə, ölkə rəhbərliyi bu tibb ocaqlarının Səhiyyə Nazirliyinin balansına verilməsini qərara aldı.

Bu addım həm də bu tibb müəssisələrinin işində paralelizmə son qoymaq baxımından zəruri idi. Belə ki, rayonlarda əhaliyə tibbi xidmət göstərilməsi bir neçə quruma tabe idi. Həm də bir neçə tibb ocağında eyni diaqnostik müayinələr, laborator analizlər, müalicə və s. təkrar olunurdu. Bundan sonra isə regional tibb rəhbərliyi rayonun bütün tibb xidmətini daha asan idarə edəcək. Müvafiq olaraq, bu mərkəzlərin işinin səmərəsi də yüksəlməlidir.

**- Bəs Mərkəzi Neftçilər Xəstəxanası (MNX) haqqında nə deyə bilərsiniz?**

- Bu xəstəxana neftçilərə xidmət etmək üçün yaradılmış, neft sənayesinin vəsaiti hesabına tikilmiş və təchiz olunmuş, Neft Şirkətinin tabeçiliyində olan tibb müəssisəsi idi. ARDNŞ xəstəxananın xidmətlərini maliyyələşdirir, lakin onu idarə etmirdi. Axı, neft şirkətinin vəzifəsi neft çıxarmaqdır, əhalinin sağlamlığı ilə məşğul olmaq deyil. Buna görə də bu xəstəxananın Səhiyyə Nazirliyinin tabeliyinə verilməsi (bizim tibb müəssisələrinə olan ümumi tələblərimiz nəzərə alınmaqla) onun fəaliyyətinin səmərəliliyinə yalnız müsbət təsir edə bilər. Hərçənd, elə indi də Mərkəzi Neftçilər Xəstəxanasında çox yüksək səviyyədə bütün növ cərrahiyyə əməliyyatları həyata keçirilir.

**- MNX-nın Səhiyyə Nazirliyinin balansına verilməsi o deməkdirmi ki, bundan sonra o, dövlət büdcəsi hesabına maliyyələşdiriləcək?**

- Xeyr. Bu klinika heç vaxt büdcədən maliyyələşdirilməyib. Buraya əsas vəsait ARDNŞ-dan gəlirdi, indi də xəstəxananın əsas kontingenti olan neftçilərin müalicəsinin haqqını, əvvəllər olduğu kimi, Neft Şirkəti ödəyəcək. Bu hansı yolla baş verəcək - birbaşa müqavilə yolu ilə, yoxsa sığorta əsasında - bunun qərarını onlar verəcəklər.

Bundan başqa, xəstəxana qeyri-profil xəstələrə, yəni neftçi olmayanlara göstərilən pullu xidmətlərdən, həmçinin MNX ilə öz əməkdaşlarına tibbi xidmət barədə sığorta müqaviləsi bağlamış özəl şirkətlərdən gələn vəsait hesabına da maliyyələşirdi. Bu vəsait bundan sonra yenə də xəstəxanaya, onun ehtiyaclarına xərclənəcək.

Demək olar ki, bu, hamını maraqlandıran sığorta təbabətinə mərhələli keçid sahəsində ilk addımlardır. Yeri gəlmişkən, bu praktika ilk dəfə burada təcrübədən keçirilə bilər.

**- Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasında kimi isə işə təyin edə, yaxud işdən çıxara bilərmi?**

- Səhiyyə Nazirliyi yalnız öz statusuna görə Nazirliyin nomenklaturasında olan tibb müəssisələri rəhbərlərini vəzifəyə təyin edir və işdən azad edir. Bütün digər əməkdaşların işə qəbulu və işdən kənarlaşdırılması müəssisə rəhbərləri tərəfindən, Əmək Məcəlləsinə müvafiq surətdə həyata keçirilir. Şəffaflığı təmin etmək məqsədi ilə tibb müəssisələri mövcud vakansiyaların tutulması üçün müsabiqə elan edirlər, bu barədə məlumat mətbuatda dərc olunur. Tibb müəssisəsinin öz əməkdaşlarından və həmkarlar ittifaqı nümayəndələrindən ibarət xüsusi komissiya yaradılır, o, bütün müraciətlərə baxır, vakant vəzifəyə namizədlərlə müsahibə keçirir və işə qəbul barədə qərar çıxarır. Neftçilər Xəstəxanasında da işə qəbul həmin prinsiplə həyata keçiriləcək.

**- Bu dəyişiklikdə Mərkəzi Neftçilər Xəstəxanasının işçilərini ən çox narahat edən məsələ maaşlarının saxlanmasıdır...**

- Əslində, bu, MNX-nın işçilərinin özlərindən asılıdır. Çünki statusun dəyişməsinə baxmayaraq, indiyədək xəstəxanaya gələn maliyyə vəsaitləri əvvəlki kimi qalır - həm pullu xidmətlərdən gələn vəsait, həm sığorta müqavilələri, həm ARDNŞ-nin neftçilərin müalicəsinə görə ödədiyi vəsait... Xəstəxananın faktiki gəlirlərinin qüvvədə qalmasını nəzərə alaraq demək olar ki, personal yaxşı işləsə, bundan sonra da yüksək əməkhaqqı alacaq.

*(Ardı səhifə 6-da)*

# Əziz Əliyev - 115

## Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin anadan olmasının 115 illiyinə həsr edilmiş elmi konfrans keçirildi

**Azərbaycanın tanınmış dövlət və elm xadimi, görkəmli pedaqoq-alim, professor Əziz Məmmədkərim oğlu Əliyevin 115 illik yubileyi münasibətilə onun adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda elmi konfrans keçirildi.**

Konfrans iştirakçıları və tibb ictimaiyyətinin nümayəndələri əvvəlcə Fəxri xiyabana gələrək, Əziz Əliyevin xatirəsini ehtiramla yad etdilər, məzarı üzərinə əklil qoydular.

Tədbiri açan **səhiyyə naziri Oqtay Şirəliyev** bildirdi ki, Azərbaycan səhiyyəsinin bu günü ölkə təbabəti tarixində xüsusi yeri olan Əziz Əliyevin səhiyyə quruculuğunda apardığı işlərlə sıx bağlıdır.

Görkəmli alimin Vətən və xalq qarşısında xidmətlərindən danışan nazir dedi ki, professor Əziz Əliyevin həyat yolu hər bir mərhələdə elmi, pedaqoji, ictimai və dövlət fəaliyyəti sahələrini əhatə edib. Ölkədə ali tibb təhsilinin, ixtisasartırma və kadrların yenidən hazırlanması sisteminin, səhiyyə təşkilatları və müəssisələri şəbəkəsinin əsasını qoyanlardan biri kimi, onun gələcək nəsillərə qoyub getdiyi irs öz dəyərini hələ də itirməyib.

Sonra **Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru Sənan Kərimov** çıxış edərək, görkəmli alimin həyat və fəaliyyəti haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. Məruzədə bildirildi ki, Əziz Əliyev 1897-ci il yanvarın 1-də İrəvan quberniyasının Hamamlı kəndində Məmmədkərim Kərbəlayi Qurbanəli oğlunun ailəsində anadan olub. Anası Zəhra xanım İbrahim bəy Süleymanbəyovun qızı idi.

1908-ci ildə İrəvandakı gimnaziyaya daxil olan Ə.Əliyev 1917-ci ildə buranı bütün fənlər üzrə "əla" qiymətlərlə bitirib. Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə Petroqrad Hərbi Tibb Akademiyasına daxil olsa da, təhsili yarımçıq qalıb.



Ə.Əliyevin Bakı həyatı 1923-cü ildən başlanıb. Bakıda ilk vaxtlar Azərbaycan SSR Xalq Komissarları Şurasında iş icraçısı, həmin idarənin ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, Azərbaycan Xalq Komissarlığı Şurasının katibi vəzifəsini icra edib. O, bu çətin və məsuliyyətli vəzifələrdə çalışmaqla yanaşı, 1927-ci ildə Bakı Dövlət Universitetinin Tibb fakültəsini bitirib və universitetin Daxili xəstəliklər kafedrasında saxlanılıb.

Sənan Kərimov qeyd etdi ki, Əziz Əliyev II Dünya müharibəsi illərində Azərbaycanda səhiyyənin təşkili məsələlərinə xüsusi diqqət yetirib. Xalq Səhiyyə Komissarlığı Müalicə şöbəsinin müdiri, Bakı Səhiyyə Şöbəsinin müdiri, xalq səhiyyə komissarının müavini, xalq səhiyyə komissarı vəzifələrində çalışarkən səhiyyə sahəsində problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görüb.

Əziz Əliyev 1934-cü il martın 30-da paytaxtda səhiyyə işlərini yaxşılaşdırmaq məqsədi ilə Bakı Şəhər Səhiyyə Şöbəsinin müdiri, 1935-ci il yanvarın 14-də Azərbaycanda yüksək ixtisaslı milli tibb kadrlarının hazırlığını gücləndirmək məqsədi ilə Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru təyin edilib.

Ə.Əliyev 1941-1942-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, 1942-1948-ci illərdə isə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışaraq, özünü bacarıqlı dövlət xadimi kimi göstərə bilib. O, 1949-1950-ci illərdə Moskvada Kommunist Partiyası Mərkəzi Komitəsinin inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, həmçinin Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində işləyib.

Məruzəçi onu da diqqətə çatdırdı ki, Əziz Əliyev həm də gözəl ailə başçısı olub. Qızı Zərifə xanım Əliyeva atasının şərəfli yolunu davam etdirib. O, görkəmli oftalmoloq kimi ad-san qazanıb, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

Qızı Gülarə xanım Əliyeva görkəmli musiqiçi, mahir piano ifaçısı olub. Oğlu Tamerlan Əliyev tibb elmləri doktoru, professor elmi dərəcələrinə yüksəlib. Əziz Əliyevin daha bir oğlu Cəmil Əliyev hazırda tibb elmləri doktoru, professordur, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür.

Tədbirdə Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov, Elmi Cərrahiyyə Mərkəzinin direktoru, akademik Böyükkişi Ağayev, Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun direktoru, professor Vaqif Verdiyev çıxış edərək, görkəmli alimin ölkə səhiyyəsinin inkişafı sahəsində xidmətlərindən söhbət açdılar və onunla bağlı xatirələrini bölüşdülər.

Konfransın elmi hissəsində "Uşaqlarda bağırsaq disbakteriozunun probiotiklərlə müalicəsi", "Qırtlağın xroniki stenozlarının endoskopik cərrahi müalicəsi", "Teletibbin müasir aspektləri" və sair mövzularda məruzələr dinlənildi.

## Xəbərlər

Praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesində bu ildən etibarən orta tibb işçiləri üçün sertifikasiya imtahanlarına start verilib. İlkin mərhələdə imtahanda beş ildən artıq tibb müəssisələrində tibbi fəaliyyətdə olmamış, könüllü qaydada hazırlıq kurslarını keçmiş 60 nəfər tibb bacısı iştirak edib. Bundan sonra tibbi fəaliyyətdə olan tibb bacıları üçün də imtahanlar keçiriləcək.

***

Səhiyyə Nazirliyi hemofiliyalı, talassemiyalı, həmçinin qana ehtiyacı olan bütün digər xəstələrin müalicəsində istifadə olunmaq üçün qan tədarükünü davam etdirir.

Son bir ay ərzində B.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya İdarəsində, həmçinin Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsində, Sumqayıt şəhər Səhiyyə Şöbəsinin və Mərkəzi Qan Bankının Sumqayıt bölməsinin dəstəyi ilə isə Sumqayıt şəhər Baş Gömrük İdarəsində könüllü qanvermə aksiyaları keçirilib.

Saatlı Mərkəzi Rayon Xəstəxanasında keçirilmiş analoji aksiyada rayonun 200-dən artıq sakini iştirak edib.

***

Sumqayıtda İİV/QİÇS-lə yaşayan şəxslərə palliativ xidmət göstərilməyə başlanıb. Qlobal Fond və Səhiyyə Nazirliyinin dəstəyi ilə "Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım" İctimai Birliyi tərəfindən icra edilən birillik layihə çərçivəsində bu infeksiya ilə yaşayan şəxslərə və onların ailələrinə hüquqi, psixoloji və tibbi yardım ediləcək. Xidmətlər mobil qrup tərəfindən ev şəraitində həyata keçiriləcək.

BAŞ SPONSOR:
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com



# Tibb təhsili yeniliklər yolunda

**Müasir dövrdə Avropa ölkələrinin təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu baxımdan həyata keçirilən tədbirlər arasında müxtəlif Avropa ölkələrinin təhsil sistemlərinin bir-birinə yaxınlaşdırılması və uyğunlaşdırılması üzrə Bolonya prosesi önəmli yer tutur.**

**Bolonya təhsil sisteminin tarixi o qədər qədim deyil. Prosesin rəsmi başlanğıcı 1999-cu il iyunun 19-u hesab olunur. Həmin tarixdə İtaliyanın Bolonya şəhərində 29 Avropa ölkəsinin təhsil nazirlərinin xüsusi konfransında "Avropa ali təhsil məkanı" bəyannaməsi və ya Bolonya bəyannaməsi qəbul edilib. Digər dövlətlər üçün də açıq olan Bolonya sistemi hazırda 46 ölkəni birləşdirir.**

**Azərbaycan Bolonya prosesinə 2005-ci ildə qoşulub və bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların konturları müəyyənləşdirilib. Artıq ölkəmizdə əksər ali təhsil müəssisələrində Bolonya sistemi tətbiq olunur və uğurlu nəticələr əldə edilir.**

**Azərbaycan Tibb Universitetində (ATU) də artıq bir neçə ildir ki, yeni təhsil sistemi qəbul olunub və ilbəil daha da təkmilləşdirilir. ATU-da Bolonya sisteminin tətbiqi, bu sahədə görülən işlər, əldə edilən uğurlar, aparılan islahatlar barədə Universitetin Tədris hissə müdiri Nəsimi Qasımovla həmsöhbət olduq.**

- Ölkəmiz Bolonya prosesinə qoşulduqdan sonra Azərbaycan Tibb Universitetində də fakültələr və kurslar üzrə tədricən yeni tədris və 100 ballıq imtahan sisteminə keçilib. Yeni sistem ATU-da ilk dəfə 6 il öncə Tibbi biologiya fakültəsində tətbiq edilib və artıq ötən il həmin fakültənin tələbələri məzun olub. Daha sonra Əczaçılıq və Tibbi profilaktika fakültələri bu prosesə qoşulub. Bu il Əczaçılıq fakültəsində, gələn il isə Tibbi profilaktika fakültəsində çoxballı sistemlə təhsil alan tələbələrin ilk buraxılışı olacaq. Stomatologiya fakültəsinin 1-3-cü, Müalicə işi, Pediatriya və Hərbi tibb fakültələrinin 1-ci və 2-ci kurslarında da tədris yeni sistemə uyğun həyata keçirilir. Digər tələbələr isə köhnə ənənəvi sistemlə təhsillərini davam etdirirlər.

Bolonya prosesinə qoşulan fakültələrdə tələbələr imtahana qədər gündəlik fəaliyyətlərinə görə 50 bal toplaya bilərlər. Onların imtahana qədər dərsə davamiyyətə görə 7-10 bal qazanmaq imkanları var. Belə ki, tələbələr dərslərin mütləq 70 faizində və daha çoxunda iştirak etməlidirlər. Eyni zamanda, semestr ərzində hər biri 1 balla qiymətləndirilən 10 ev tapşırığı yerinə yetirilməlidir. Qalan 30 bal isə seminarlarda və laboratoriya məşğələlərində tələbənin cavabına görə verilir.

100 balın qalan 50-si isə imtahan ballarıdır.

**- Bəs, Bolonya sistemi ilə imtahanlar necə keçirilir?**

- Bu ilə qədər imtahan qiyməti tələbənin 5 suallı biletə yazılı şəkildə verdiyi cavaba görə müəyyən edilirdi. 5 sualın hər biri 0-10 balla qiymətləndirilirdi. Bu ildən isə imtahan test üsulu ilə, kompyuter vasitəsilə aparılır.

**- Yeni qaydaya keçid hansı zərurətdən yarandı?**

- İmtahanların çoxluğu, yəni kütləvilik, subyektiv faktorların aradan qaldırılmasına ehtiyac, müəllimlərin ayrı-ayrı fərdlərin yazılarının yoxlanılması zamanı çəkdiyi əziyyət, qarşılaşdıqları çətinliklər bizi imtahanları test üsulu ilə aparmağa vadar etdi.

Qeyd edim ki, hazırda test imtahanlarında 2774 tələbəmiz iştirak edir və onların hər biri orta hesabla 8 imtahan verir. Əvvəlki sistemlə buna çox böyük vəsait və hədsiz enerji tələb olunurdu. Eyni zamanda, istər şifahi, istərsə də yazılı imtahanlarda istər-istəməz subyektiv yanaşma özünü göstərirdi. Çünki həm şifahi imtahan götürən, həm də yazılı imtahanlarda tələbələrin cavab kağızlarını yoxlayan müəllimlər müxtəlifdir və onların hər birinin öz yanaşması var. Bu isə lazımi standartın müəyyənləşdirilməsində çətinlik yaradırdı. Hazırda təkcə ATU-da deyil, ölkəmizdə fəaliyyət göstərən bir çox ali təhsil müəssisələrində imtahanlar test üsulu ilə aparılır.

**- ATU-nun müəllim heyətinin və tələbələrin bu dəyişikliyə münasibəti necə oldu?**

- Yeni üsulla imtahanların keçirilməsinə başlamazdan öncə bu məsələ həm Elmi Şurada, həm kafedra müdirləri ilə müzakirə edildi, həm də ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov ayrı-ayrı fakültə və kurslar üzrə yeni sistemdə təhsil alan bütün tələbələrlə görüşdü.

Ümumi müzakirələrdən sonra belə bir nəticəyə gəlindi ki, tələbələrə hər fənn üzrə 300-700 test hazırlanıb verilsin. İmtahanda isə həmin testlərin içərisindən seçilmiş 25 sual təqdim olunsun. Tələbələr həmin suallara verilən doğru cavabların sayına görə qiymətləndirilsin.

Artıq bu üsulla bir neçə imtahan keçirilib. ATU-nun rektoru ilk imtahanlardan çıxan tələbələrlə şəxsən görüşüb, söhbət edib. Biz də həm imtahanlarda iştirak etmişik, həm də tələbələrin imtahanların test üsulu ilə aparılması ilə bağlı fikirlərini öyrənmişik. Tələbələr imtahanların bu şəkildə aparılmasından çox razıdırlar. Onlar imtahan nəticələrinin obyektivliyinə əmindirlər. Özü də test üsulu ilə keçirilən imtahanda tələbə son suala cavab verən zaman artıq imtahanın nəticəsini bilir.

Əlbəttə ki, biz gələcəkdə imtahan qaydalarında müəyyən dəyişikliklər edə bilərik. Ancaq bu, test üsulunun dəyişdirilməsi deyil, daha da təkmilləşdirilməsi ola bilər. Tələbələri bu sistemə tam alışdırdıqdan sonra sualların sayını 50-yə qədər artıra bilərik, imtahana düşəcək sualların bir hissəsini tələbələrə verməyə bilərik. Bir müddət sonra isə tələbələrə sualları deyil, ancaq ümumi proqramı verə bilərik.

**- Belə çıxır ki, 300-700 sualın cavabını əzbərləmək imtahandan yüksək nəticə əldə etməyə kifayət edir?**

- Doğrudur, bəzən tələbələr də bizə müraciət edərək, imtahanın bir az çətinləşdirilməsini təklif edirlər. Çünki yüksək bal toplayan çox olanda həqiqətən savadlı, yaxşı hazırlıqlı tələbə ilə digərləri arasında fərq itir. Ancaq bu o demək deyil ki, hamı qiymət alır. İmtahanlardan kəsilənlərin sayı ötən illərlə müqayisədə heç də az deyil. Sadəcə, ola bilər ki, bəzi tələbələr imtahana özü hazırlaşır, bəziləri isə dostlarından hazır cavabları götürüb əzbərləyirlər. Ancaq bir fənn üzrə 700 testi əzbərləyib yadda saxlamaq da müəyyən qədər bilik, bacarıq tələb edir. İnqilabi dəyişiklik mümkün deyil. Biz çatışmazlıqları tədricən aradan qaldıracağıq.

Ümumiyyətlə, həkimlik əməli vərdişlərin, bacarıqların və biliyin məcmusudur. Təkcə nəzəri biliklə həkim olmaq mümkün deyil. Müasir qaydalara görə, bilik bir dairədir, ikinci dairə bacarıqdır, hər iki dairədən böyük üçüncü dairə çətin situasiyalardan çıxmaq və 3-cü dairə ilə eyni böyüklükdə 4-cü dairə etik qaydalara riayət etməklə davranışdır.

**- Qeyd etdiniz ki, yeni üsulla 2800 nəfərə qədər tələbə kompyuterlərin köməyi ilə hərəsi orta hesabla 8 imtahan verəcək. İmtahanların yüksək səviyyədə təşkili üçün ATU-nun texniki hazırlığı, təchizatı hansı səviyyədədir?**

- Test üsulu ilə imtahanların keçirilməsi üçün bu gün ATU-da 210 müasir kompyuter quraşdırılıb. Kompyuter sistemi ümumi şəbəkəyə deyil, lokal şəbəkəyə birləşdirilib. İnternetə daxil olma, proqramın dağıdılması, viruslanma qorxusu yoxdur. İmtahanlara imtahan verilən fənnlərə aidiyyəti olmayan gənc müəllimlər nəzarət edir. Eyni fənnlər üzrə imtahan verən tələbələrin yanaşı oturmasının qarşısı alınıb. Həmçinin suallar müxtəlif variantlarda təqdim olunur.

İmtahan otaqlarına kameralar quraşdırılıb, imtahanın gedişini kənardan da müşahidə etmək mümkündür. Tələbələr imtahan otaqlarına yoxlanılıb buraxılır. Üzərlərində telefon, "şparqalka" və s. kimi əlavə vasitələrin keçirilməsinə imkan verilmir. Maksimum səviyyədə obyektivliyin təmin olunmasına çalışmışıq.

*(Ardı səhifə 15-də)*

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# «Görülən işin göstəricisi

## Bunu «Tibb qəzeti»nə eksklüziv müsahibəsində

*(Əvvəli səhifə 3-də)*

**- Əgər Neftçilər Xəstəxanası dövlət klinikasına çevrilirsə, dövlət səhiyyə müəssisələrində isə tibbi xidmətlər pulsuzdursa, necə olur ki, MNX-da qeyri-profil pasiyentlərin müalicəsi, özəl klinikalarda olduğu kimi, ödənişli əsasla həyata keçiriləcək?**

- Dövlət səhiyyə sistemində büdcədən maliyyələşən tibb müəssisələri ilə yanaşı, ödənişli əsaslarla fəaliyyət göstərən, təsərrüfat hesablı qeyri-büdcə müəssisələri də var. "Qeyri-büdcə maliyyələşməsi" maddəsi həmişə olub, indi də var. Yəni pulsuz səhiyyə digər növ tibbi xidmətləri - ödənişli, müqavilə yolu ilə və s. tibbi yardımı istisna etmir.

**- İndi pullu xidmət göstərən dövlət tibb müəssisələri varmı?**

- Bəli, məsələn, Səhiyyə Nazirliyinin təsərrüfat hesablı poliklinikası artıq 80 ildən çoxdur ki, özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərir. O, özəl deyil, büdcədən də maliyyələşdirilmir. Bütün fəaliyyəti dövründə pullu tibbi xidmətdən əldə edilən vəsait poliklinikanın saxlanmasına və personalın maaşına xərclənib, bu gün də o, həmin prinsiplə işləyir.

Mahiyyət etibarilə, sığorta təbabəti də həmin prinsip əsasında qurulub. Səmərəli çalışan tibb müəssisəsinin yeni aparatura almaq, işçilərə yüksək əməkhaqqı vermək və s. imkanı olur. Bu, mərhələli prosesdir və biz buna doğru gedirik. Lakin bu məsələdə tələsmək olmaz. Əvvəlcə bu praktika aprobasiyadan keçirilməlidir, axı, tibbi sığortanın müxtəlif sxemləri var. Bütün müsbət və mənfi cəhətləri götür-qoy eləmək, yalnız bundan sonra onu mərhələli şəkildə həyata keçirmək lazımdır. Əks halda, Rusiyada olunan səhv təkrar edilə bilər. Orada sığorta təbabəti birdəfəyə tətbiq olundu və hələ indiyədək bu sahədə tam qarışıqlıq hökm sürür.

**- Bəs, özəl xarici şirkətlər dövlət xəstəxanaları ilə sığorta müqavilələri bağlaya bilərmi?**

- Bu yalnız pullu xidmətlərin olduğu dövlət tibb müəssisələrində mümkündür. Digər dünya ölkələrindən fərqli olaraq, Azərbaycanda xarici vətəndaşlara da pulsuz tibbi xidmət göstərilir.

**- 2012-ci ildə sığorta sisteminin, qismən də olsa, tətbiqi nəzərdə tutulurmu?**

- Bizdə könüllü tibbi sığorta var. O ki qaldı icbari tibbi sığortaya, cənab Prezidentin Sərəncamına əsasən, Nazirlər Kabinetinə tapşırıq verilib ki, bu məsələ ilə məşğul olacaq agentlik yaratsın.

Prinsipcə, hər bir adam öz istəyinə uyğun xəstəxana və ya poliklinika seçə bilər. Özəl, yaxud müəyyən bir idarənin nəzdində olan klinikada göstərilən xidmətlər dövlət xəstəxanalarında da var, özü də ödənişsiz. Həmin aparatura (rentgen, kompyuter tomoqrafiyası, nüvə-maqnit-rezonans tomoqrafiyası, angioqrafiya və s.) burada da var, burada da ürək əməliyyatları, böyrəkköçürmə və s. kimi mürəkkəb cərrahiyyə əməliyyatları həyata keçirilir. Ancaq bununla belə, kimsə pul ödəyib özəl klinikada, ya da bir idarənin nəzdindəki xəstəxanada müalicə olunmaq istəyirsə, bu onun hüququdur.

Əsas odur ki, dövlət sosial statusundan asılı olmayaraq bütün ölkə əhalisinə tam həcmdə pulsuz tibbi xidmət təqdim edir.

**- Bəs, regional müalicə-diaqnostika mərkəzlərində müalicə pulsuz olacaq?**

- Bəli, onlar ödənişsiz əsaslarla fəaliyyət göstərməyə davam edəcəklər.

**- Bu mərkəzlərin Səhiyyə Nazirliyinə verilməsi ilə əlaqədar olaraq, səhiyyəyə ayrılan büdcə vəsaitinin artırılmasına ehtiyac yaranıb?**

- Yox, hələ ki buna ehtiyac yoxdur. Ancaq qeyd edim ki, səhiyyə büdcəsi ildən-ilə artırılsa da, unutmaq olmaz ki, əhali də daim artır.

**- Regional diaqnostika mərkəzlərində çalışanların əməkhaqqı dövlət tibb müəssisələrində işləyənlərin maaşından xeyli artıqdır. Mərkəzlərin büdcə maliyyələşməsinə keçirilməsi onların işçilərinin əməkhaqqına təsir edəcək?**

- Bu diaqnostika mərkəzləri ən müasir, yüksək texnoloji avadanlıqla təchiz edildiyinə görə, orada çalışan personal da müvafiq aparaturada işləmək bacarığı və təcrübəsi olan yüksək ixtisaslı mütəxəssislərdir. Bundan əlavə, regional mərkəzlərdə mürəkkəb əməliyyatlar da həyata keçirilir. Bütün bunlara müvafiq olaraq, orada əmək haqqı da yüksəkdir. Yeri gəlmişkən, dünyanın hər yerində mərkəzdən uzaq rayonlarda işləyən yüksək ixtisaslı mütəxəssislər əməkhaqqına müəyyən əlavə də alırlar.

O ki qaldı dövlət tibb müəssisələrinin əməkdaşlarına, nəzərə alsaq ki, Azərbaycanda səhiyyə sahəsində çalışanların sayı artıq 140 mini keçib, birdəfəyə hamının maaşlarını artırmaq real deyil. Bu, mərhələli prosesdir. Cənab Prezident dəfələrlə öz sərəncamları ilə tibb işçilərinin əməkhaqqını qaldırıb. Məsələn, təcili və təxirəsalınmaz tibbi yardım xidməti əməkdaşlarının, qan və onun komponentlərinin, eləcə də sümük iliyinin tədarükü, emalı və saxlanması ilə məşğul olan mütəxəssislərin maaşları 2 dəfə artırılıb.

***- Ancaq bölgələrdə yerləşən tibb müəssisələri yerli büdcələrdən maliyyələşdirilir...***

- Elədir, amma rayonlarda elə müəssisələrimiz də var ki, maliyyələşməsi Səhiyyə Nazirliyinin mərkəzi büdcəsindən həyata keçirilir. Məsələn, bütün rayon GEM-ləri artıq on illərdir ki, Respublika GEM-dən maliyyələşdirilir. Yaxud bütün regional qan bankları Mərkəzi Qan Bankından maliyyələşir. Hemodializin həyata keçirildiyi rayonlara bununla bağlı bütün istifadə materialları da mərkəzləşmiş qaydada, Səhiyyə Nazirliyinin büdcəsi hesabına verilir. Bir neçə il əvvəl Neft Şirkəti tərəfindən Siyəzəndə tikilmiş və xeyli müddət əvvəl Səhiyyə Nazirliyinə verilmiş Müalicə-Diaqnostika Mərkəzi də (artıq Mərkəzi Rayon Poliklinikası) mərkəzi büdcədən maliyyələşdirilir. Rayonlarda vərəm və QİÇS xidməti də zəruri olan hər şeylə Səhiyyə Nazirliyinin mərkəzi büdcəsindən təmin edilir. Bir sözlə, bizim artıq belə iş təcrübəmiz var.

**- Necə düşünürsünüz, pensiya yaşına çatmış həkimlərin işdən getməsi yüksək ixtisaslı, təcrübəli mütəxəssislərin çatışmazlığına səbəb ola bilərmi?**

- Əgər söhbət yaşı 65-i ötmüş yüksək ixtisaslı, əvəzolunmaz mütəxəssislərdən gedirsə, tibb müəssisəsinin rəhbəri bununla əlaqədar müəyyənləşdirilmiş 2 faizlik limitə əsasən, belə işçilərlə əmək müqaviləsini onların 70 yaşı tamam olanadək ilbəil uzada bilər. Səhiyyə Nazirliyi sistemində hazırda xeyli yüksək ixtisaslı kadr var ki, onlara öz fəaliyyətini daha bir il uzatmaq imkanı verilib.

Əgər söhbət yaşı 65-i keçmiş tibb müəssisəsi rəhbərlərindən gedirsə, onların fəaliyyəti barədə qərarı yuxarı instansiyalar - şəhər səhiyyə şöbəsi, yaxud Səhiyyə Nazirliyinin kollegiyası (əgər müəssisə birbaşa Nazirliyin tabeliyindədirsə) qəbul edir. Bu gün belə hallar da var.

Amma bu o demək deyil ki, bu şərti avtomatik olaraq, xüsusi ehtiyac olmadan bütün 65 yaşlı əməkdaşlara - fiziki imkanları və çoxdan təkmilləşdirilməyən bilikləri buna əsas verməyənlərə də tətbiq etmək olar. Belə şəxslər pensiyaya çıxırlar, özü də dörddə bir, yaxud yarım ştat vahidi çalışanlar maaşlarından artıq pensiya alırlar. Bun-

# konkret əməllərdir»

## Azərbaycan səhiyyə naziri Oqtay Şirəliyev dedi

dan başqa, elmlər namizədlərinə və elmlər doktorlarına, o cümlədən təbabət sahəsində də, dövlət pensiyaya əlavə olaraq 150-200 manat ayırır.

Üstəlik, istəsələr, pensiyaya çıxan tibb işçiləri, eləcə də büdcədən maliyyələşən tibb müəssisələrinin əməkdaşları əlavə olaraq hazırda Azərbaycanda sayı 500-ə çatan özəl tibb müəssisələrində çalışıb, öz bilik və təcrübələrini orada tətbiq edə bilərlər. Bu haqqı heç kim onların əlindən almır.

**- Özəl klinikaların sayının artması ilə əlaqədar olaraq, yüksək ixtisaslı tibbi kadrların kütləvi surətdə özəl sektora keçməsi təhlükəsi varmı?**

- Biz hələ ki bunu hiss etmirik. Tibbi personala müəyyən ehtiyacın olduğu bəzi ucqarlar istisna olmaqla, Bakıdakı dövlət tibb müəssisələrində kadr çatşmazlığı yoxdur.

**- 500 özəl klinika Azərbaycan üçün çox deyil ki? Onların sayı məhdudlaşdırılacaqmı?**

- Çox, ya az - bu, bazar iqtisadiyyatıdır. Siz ölkə rəhbərliyinin azad sahibkarlığa münasibətini bilirsiniz, biz də həmin tələblərə uyğun hərəkət edirik. Yeni klinika açmaq sahibkarın haqqıdır, biz isə yalnız orada tibbi xidmətin keyfiyyətinə nəzarət edə bilərik. Biz iş adamına hökm edə bilmərik ki, nəyə sərmayə qoysun - klinikaya, restorana, ya marketə... Sağlam rəqabət həmişə yaxşıdır. Biz ancaq nəzarət edirik ki, özəl klinikalarda tibbi normativlərə əməl olunsun, xəstələr protokollara əsasən müalicə edilsinlər və s.

Üstəlik, əgər əvvəllər özəl klinikanın açılması üçün lisenziyanın verilməsi müxtəlif bürokratik maneələrlə müşayiət olunurdusa, indi biz bu prosesi maksimal surətdə asanlaşdırmışıq və lisenziya əldə etmək artıq problem olmur.

**- 2012-ci ildə ölkə səhiyyəsində hansısa yeniliklər gözlənilirmi?**

- Bir müdrik insan yaxşı deyib: "Eləməli olduğumdan bir az çox etdim, amma eləmək istədiyimdən xeyli az etdim". Biz də eləcə, bir çox layihələri həyata keçirdik, amma hələ görüləsi çox iş var.

Nəzərdə tutulan işləri saymaqla qurtarmaz. Bir neçə məsələnin üstündə dayanım. Bu il ana və uşaq sağlamlığının qorunması məsələlərinə, antenatal, intranatal və postnatal dövrlərə daha da çox diqqət yetiriləcək. Qadınların hamiləliyə qədər, hamiləlik müddətində və doğuşdan sonra müayinə olunması çox vacibdir. Bu məqsədlə poliklinikalar və digər xidmətlər cəlb olunacaq. Uşaqlar da poliklinikalarda vaxtında müayinə olunmalıdırlar.

Elektron kartlara nəzarət artırılacaq. Artıq müvafiq əmr hazırlanıb və ona əsasən, bütün stasionarlardan gündəlik dəqiq məlumatları toplamağa imkan verən avtomatlaşdırılmış sistem yaradılacaq. Toplanan informasiya ilin sonunda ümumiləşdiriləcək və biz dəqiq statistik məlumatlar əldə edəcəyik.

Psixiatriya sahəsində də ciddi dəyişikliklər baş verəcək. Etimad telefonları, psixoloq konsultasiyaları, ruhi xəstələrin reabilitasiyası nəzərdə tutulan Psixi Sağlamlıq Mərkəzinin yaradılmasını planlaşdırırıq. Bu sahədə yeniliklərin ilk müjdəsi kimi, artıq poliklinikalarda psixi sağlamlıq kabinetləri fəaliyyət göstərir.

Hazırda bütün dünyada ilkin səhiyyədən danışılır, biz də bu sahədə çox iş görürük. Xaricdə xəstələri stasionarlarda həftələrlə, aylarla saxlamırlar. Hətta sümük sınıqları zamanı belə, zərərçəkəni, bizdə olan kimi, 25 gün dövlət hesabına xəstəxanada yatırtmırlar - ona sadəcə olaraq müvafiq aparat qoyurlar və ertəsi gün evə göndərirlər. Elə buna görə də islahatlar aparארkən biz çarpayıların səmərəli istifadə olunmasına çalışırdıq. Son illər bu göstərici həqiqətən də artıb. Yeri gəlmişkən, bizdə səhiyyə islahatları sayəsində 2008-ci ildən 2011-ci ilədək xəstəxana çarpayılarının sayı təxminən 2 dəfə azalıb. Bir sözlə, hər şey səhiyyənin düzgün təşkilindən, vəsaitlərin məqsədli və səmərəli xərclənməsindən asılıdır.

O da var ki, cəmiyyətin tələbi artdıqca, səhiyyə xərcləri də artır. Ancaq hətta Böyük Britaniya, yaxud ABŞ kimi inkişaf etmiş ölkələrdə belə, sağlamlıq məsələlərinə böyük vəsait xərclənsə də, əhali yenə də səhiyyə xidmətlərindən narazı qalır. Elə buna görə də, məsələn, İngiltərədə indi səhiyyə sisteminə dəyişiklik edirlər.

**- Bir sıra kütləvi informasiya vasitələrində səhiyyənin ünvanına tənqidi yazılara münasibətiniz necədir?**

- Əgər bu, obyektiv faktlara əsaslanan konstruktiv tənqiddirsə, onda müsbət yanaşıram. Amma əgər tamah, ya da digər məqsədlə, xüsusi planlaşdırılmış, "qondarma" "qara piar"dırsa, onda münasibətim, əlbəttə, mənfidir. Birinci halda bu yalnız işin xeyirinədir, çünki səhiyyə sahəsində çatışmazlıqları aradan qaldırmağa kömək edir. İkinci halda isə dağıdıcı xarakter daşıyır. Bəzən utanmazcasına elə əsassız, qərəzli, uydurma, doğru olmadığı hətta mətbu orqanın özünə də yaxşı bəlli olan, ağ-bədiyə yalanı çap edirlər ki, lap mat qalırsan. Belə yazıları təkzib etmək mənasızdır, çünki bu o dərəcədə açıq-aşkar yalandır ki, bizim müdaxiləmiz olmadan belə, sabun köpüyü kimi partlayır. Nəsibi ancaq qəsdən yalan məlumat yaymaq olan belə başabela jurnalistlərə mənim yazığım gəlir. Amma öz peşə borcunu şərəflə yerinə yetirən, bütün faktları araşdırıb həqiqətin kökünə çatan və yalnız bundan sonra öz materiallarını oxucuların mühakiməsinə çıxaran jurnalistlərlə isə fəxr edirəm.

**- Ötən il bütün dövlət strukturlarında, ö cümlədən səhiyyədə də korrupsiya ilə ciddi mübarizə başladı. Bu proses ağrısız ötüşmədi, bildiyimizə görə, onun həm müsbət, həm də mənfi təsirləri oldu...**

- Sözlərinizdə həqiqət var. Korrupsiya ilə mübarizə bir neçə istiqamətdə gedirdi. İstiqamətlərdən biri hər bir dövlət xəstəxanasının nəzdində hər kəsin müraciət edə biləcəyi xüsusi komissiyanın yaradılması oldu. Pasiyentlərdən şikayətlər qəbul edilir, sonra onlara Səhiyyə Nazirliyində baxılırdı, özü də şikayətçinin özünün iştirakı ilə. Hadisə hərtərəfli araşdırıldıqdan sonra qərar qəbul edilirdi. Nəticədə, biz bütün daxil olan müraciətləri təhlil edəndə aydınlaşdı ki, şikayətlərin 80%-i əsassız və qeyri-obyektivdir. Belə ki, çoxsaylı əsassız gileylərlə, pasiyentlərin tibb işçilərinə təzyiqi, xəstələrin həkimləri şantaj etməsi ilə rastlaşırdıq. Tibb işçilərinin həqiqətən də səhv etdiyi hallar istisna olmaqla - buna görə onlar müvafiq surətdə cəzalandırıldılar - ümumilikdə, həkimlər özlərinin doğru, öz dəlillərinin tutarlı olduğunu, işə can yandırdıqlarını sübut edirdilər və mən bunu çox yüksək qiymətləndirirəm. Dövlət başçısı dəfələrlə öz sərəncamları ilə tibb işçilərinin əməyinə yüksək dəyər verdiyini nümayiş etdirir - maaşlarını artırır, yüksək mükafatlarla təltif edir, onlara yaxşı iş şəraiti yaratmaq üçün tədbirlər görür.

Fürsətdən istifadə edərək, mən də öz növbəmdə vətəndaşlarımızın sağlamlığı naminə fədakarlıqla işləyən, gecələri yuxusuz qalaraq, kimlərinsə həyatı uğrunda mübarizə aparan, öz həkimlik vəzifəsini peşəkarcasına və insanlara məhəbbətlə yerinə yetirən hər kəsi Yeni il münasibətilə təbrik etmək istəyirəm. Səhiyyə sahəsində çalışanların hamısına sağlamlıq, xoşbəxtlik, uğurlar və işlərində böyük qələbələr arzulayıram.

**N.MƏCİDOVA**

# Həkimlərin bir imtahan ili

Ü.FƏRZƏLİYEVA

**Bildiyimiz kimi, Səhiyyə Nazirliyi ötən ilin yanvar ayından etibarən praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikatlaşdırılması işinə başlayıb.**

**Uzun illərdir dünya praktikasında geniş tətbiq edilən sertifikasiya prosesi Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 21 dekabr tarixli Fərmanı və Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmiş "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"-nı rəhbər tutaraq həyata keçirilir.**

**Bütün ölkə səhiyyəsi üçün çox əhəmiyyətli addım olan sertifikasiya prosesinin başlanmasından artıq 1 il ötüb. Bu müddət ərzində sertifikatlaşdırmanın təşkili, test imtahanlarının və müsahibələrin keçirilməsi ilə bağlı görülmüş işlər haqqında bizə Səhiyyə Nazirliyinin aparat rəhbəri, Səhiyyə Mütəxəssislərinin Sertifikasiya Şurasının sədri Zəkiyyə Mustafayeva geniş və əhatəli məlumat verdi.**

- Ötən 1 il ərzində praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiya imtahanlarının nəticələri göstərir ki, bu proses ümumilikdə milli səhiyyə sisteminin inkişafına, əhaliyə göstərilən tibb xidmətinin keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir edir, bu sahədə müəyyən uğurlar qazanılır.

Bu gün sertifikasiya prosesi cəmiyyət və tibb ictimaiyyəti tərəfindən səhiyyə sistemində aparılan islahatların vacib bir komponenti, müasir dövrün tələblərinə uyğun olaraq tibb mütəxəssislərimizin öz üzərlərində işləmələrini, daim yenilikləri öyrənmələrini şərtləndirən addım kimi qəbul olunur.

**- Sertifikasiya prosesinin uğurlu keçməsi üçün hansı təşkilati və maarifləndirmə işləri görülmüşdü?**

- Bu məqsədlə Səhiyyə Nazirliyi və Nazirliyin Sertifikasiya Komissiyası tərəfindən təşkilati-texniki və maarifləndirmə-məlumatlandırma istiqamətində geniş miqyaslı tədbirlər həyata keçirilmişdi.

İlk növbədə, mütəxəssislər tərəfindən müxtəlif ixtisaslar üzrə test imtahanlarının sualları hazırlanmış və 2010-cu ilin dekabr ayından etibarən Səhiyyə Nazirliyinin, daha sonra isə Sertifikasiya Komissiyasının saytında yerləşdirilmişdi. Nazirliyin saytında sertifikasiya prosesi ilə bağlı sualların cavablandırılması üçün onlayn müraciət bölməsi də yaradılıb. Eyni zamanda, səhiyyə mütəxəssisləri onları maraqlandıran suallarla birbaşa Sertifikasiya Komissiyasına da müraciət edərək, məlumat ala bilirlər.

Hazırlıq işlərinin əsas komponentlərindən biri sınaq imtahanlarıdır. Sertifikasiya ölkəmizdə yeni praktika olduğundan, sınaq imtahanları həm texniki cəhətdən imtahanın necə keçiriləcəyi barədə məlumatlandırma xarakteri daşıyır, həm həkimin psixoloji hazırlığına, həm də özünü yoxlamasına xidmət edir. Əslində, ilkin mərhələdə bu, bizim üçün də bir təcrübə, müəyyən mənada, sınaq idi. Qeyd edək ki, sınaq imtahanları Sertifikasiya Komissiyası tərəfindən əsas test imtahanından bir ay əvvəl, özü də ödənişsiz əsaslarla keçirilir. Bu sınaq imtahanlarında iştirak etmək könüllüdür və tibb mütəxəssisləri yalnız Komissiyaya zəng etməklə qeydiyyatdan keçə bilərlər.

Sertifikasiya Komissiyasının saytının yaradılması (www.snsk.az) da prosesin uğurlu təşkili baxımından əhəmiyyətli addımdır. Saytda sertifikasiya ilə bağlı bütün zəruri məlumatları, ədəbiyyat siyahısını, imtahan suallarını əldə etmək mümkündür. Sayt öz funksiyasına görə universal virtual ofis və məlumat mərkəzi kimi qiymətləndirilə bilər. Bu "ofis" və məlumat mərkəzi istənilən zaman səhiyyə mütəxəssislərinin köməyinə gəlir.



**- Bildiyimizə görə, maarifləndirmə-məlumatlandırma istiqamətində görülən tədbirlərdən biri də "Tibb mütəxəssislərinin sertifikasiya ilə bağlı maarifləndirilməsi" layihəsi olub...**

- Bəli, ötən ilin aprel ayından başlayaraq iyul ayının sonuna qədər Səhiyyə Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Səhiyyə Kommunikasiyası Assosiasiyası tərəfindən "Tibb mütəxəssislərinin sertifikasiya ilə bağlı maarifləndirilməsi" layihəsi həyata keçirildi. Üç ay ərzində keçirilən və ölkənin bütün regionlarını əhatə edən təlimlərin məqsədi tibb mütəxəssislərinin sertifikasiya prosesi barədə məlumatlandırılması, onların suallarının yerindəcə cavablandırılması, hazırlıq üçün məsləhətlər verilməsi idi.

Səhiyyə müəssisələrində keçirilən təlimlərdə Assosiasiya tərəfindən hazırlanan və Səhiyyə Nazirliyi tərəfindən nəşr edilən sertifikasiya ilə bağlı kommunikasiya materialları ("Suallar və cavablar", "Sertifikasiyaya hazırlıq üçün tövsiyələr", "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası ilə bağlı normativ-hüquqi aktlar" və s.) iştirakçılar arasında paylandı. Bununla yanaşı, Sertifikasiya Komissiyası tərəfindən hazırlanmış sertifikasiyaya hazırlıq üçün istifadə olunan ədəbiyyatların elektron forması da iştirakçılara təqdim olundu.

**- Layihə ümumilikdə nə qədər tibb mütəxəssisini əhatə etdi və onun müsbət nəticəsi nə oldu?**

- Layihə çərçivəsində bütün ölkə üzrə keçirilən 47 təlimdə 3000 səhiyyə mütəxəssisi iştirak etdi. Ümumilikdə, bu təlimlər olduqca məhsuldar və faydalı keçdi. Layihənin həyata keçirilməsində Səhiyyə Nazirliyi və onun Sertifikasiya Komissiyası Assosiasiyaya hərtərəfli dəstək verərək, qarşıya qoyulan məqsədlərə nail olunmasında çox böyük yardım göstərdilər. Nazirlik və Komissiya tibb mütəxəssislərinin sertifikasiyası prosesinin daha da təkmilləşdirilməsi üçün mütərəqqi təklif və təşəbbüslərin müzakirəsinə, bu işdə yardım göstərməyə çalışan bütün maraqlı tərəflərlə əməkdaşlığa hazır olduqlarını bir daha nümayiş etdirdilər.

Qeyd edim ki, o vaxta qədər sertifikasiya prosesi yalnız Bakıda fəaliyyət göstərən tibb müəssisələrinin mütəxəssislərini əhatə edirdi. Bu layihə isə, müəyyən mənada, ölkənin bütün bölgələrinin prosesə cəlb olunmasına hazırlıq xarakteri daşıyırdı.

**- Bir il ərzində nə qədər həkim sertifikasiya imtahanında iştirak etdi və imtahanların nəticələri necə oldu?**

- 2011-ci ilin yanvar ayından ilin sonuna kimi 3572 həkim 39 ixtisas üzrə imtahan verib. Onlardan yalnız 235 nəfəri, yəni cəmi 7%-i tələb olunan minimal balı toplaya bilməyib. Bu həkimlərə hazırlaşmaq üçün 6 ay vaxt verilib. 65 nəfər artıq təkrar imtahanda iştirak edib. Onlardan 55 nəfəri 2-ci cəhddə uğur qazanıb, 10 nəfəri isə uğursuz nəticə əldə edib. Test imtahanından ikinci cəhddə də, hətta 6 aylıq hazırlıqdan sonra belə keçə bilməyən şəxslərlə isə əmək müqaviləsi pozulub. Əlbəttə, faiz nisbətində götürəndə, bu, çox kiçik rəqəmdir. Ümumilikdə, bu günə kimi 3038 həkim sertifikat alıb.

Maraqlıdır ki, imtahan nəticələrinin keyfiyyət göstəriciləri də yüksəkdir. Belə ki, imtahanları uğurla verən həkimlərin 1806 nəfəri 90 baldan artıq, 1147 nəfəri 75-90, 371 nəfəri isə 60-75 bal toplayıb. Beləliklə, 75 baldan yuxarı toplayanlar ümumi müvəffəq nəticələrin 83 faizini təşkil edir.

**- Sertifikasiya prosesi ilə paralel surətdə həkimlərə ixtisas dərəcəsi verilməsi məsələlərinə də baxılıb...**

- Bəli, test imtahanları həkimlərə ixtisas dərəcəsi verilməsi prosesinin də bir mərhələsi oldu. Ümumilikdə, 56 həkim ixtisas dərəcəsi aldı. Onlardan 29-u ikinci, 9-u birinci, 18-i isə ali dərəcə aldı.

**- Sertifikatlaşdırma prosesinə başlanan ərəfədə müxtəlif şayiələr yayılırdı.**

*(Ardı səhifə 15-də)*

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# 389 qutu yararsız dərman!

## DVAEM Bakı və Sumqayıtda fəaliyyət göstərən apteklərdə yoxlamalara başlayıb

**Səhiyyə Nazirliyinin Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzinin (DVAEM) inspektorları bu günlərdə 5-i Bakıda, 5-i isə Sumqayıtda olmaqla, 10 aptekə baxış keçiriblər. Reydlər Ədliyyə Nazirliyinin yoxlamaların qeydiyyata alınmasına dair "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"ndən alınmış müvafiq çıxarışlara əsasən və İqtisadi İnkişaf Nazirliyi nümayəndələrinin iştirakı ilə aparılıb.**




Həm paytaxtda, həm də Sumqayıt şəhərində yoxlama aparılmış əczaxanaların hamısı lisenziya əsasında fəaliyyət



göstərən apteklərdir. Qeyd edək ki, reydlər zamanı həm şəraitin müvafiq tələblərə uyğun gəlib-gəlməməsinə, həm də dərman vasitələrinin yararlı olub-olmamasına, həmçinin onların saxlanma qaydalarına riayət edilib-edilməməsinə diqqət yetirilib. Nəticədə, bir sıra neqativ hallar qeydə alınıb. Gəlin əvvəlcə paytaxt apteklərinin vəziyyəti ilə tanış olaq.

Bakıda reyd keçirilmiş 5 aptekin hamısı Nəsimi rayonu ərazisində fəaliyyət göstərir. Və onların arasında elə biri yoxdur ki, orada müxtəlif nöqsanlar aşkar olunmasın! A.Məhərrəmov küçəsi, 3004-cü məhəllədə yerləşən, "Azkomed" MMC-yə məxsus (lisenziya 025677), C.Hacıbəyli küçəsi, 39 ünvanında fəaliyyət göstərən "CS" İstehsalat Kommersiya Firmasına məxsus (lisenziya 025667) və S.Vurğun küçəsi, 50-də, "Cənub-İC" MMC-yə məxsus (lisenziya 025750) apteklərdə eyni nöqsanlar qeydə alınıb: Hər üç əczaxanada müvafiq qaydalara zidd olaraq, qeyri-ixtisas sahibləri çalışırlar. Bundan əlavə, onlar standarta uyğun ad asılqanı ilə təmin edilməyiblər. Hələ bu da son deyil: Termolabil preparatların saxlanma qaydalarına da riayət edilməyən bu obyektlərin birincisindən 14 adda (24 qutu), ikincisindən 20 adda (33 qutu), üçüncüsündən isə 10 adda (19 qutu) sertifikatsız dərman götürülüb.

S.Rəhimov küçəsi, 126/64 ünvanında yerləşən, "Celamig LTD" MMC-yə məxsus (lisenziya 071224) aptek də öz problemlərinə görə digərlərindən "geri qalmır". Əczaçılıq soyuducusunun, termometr və hiqrometrin olmadığı bu əczaxanada 6 adda (8 qutu) sertifikatsız preparat tapılıb.

Bülbül prospekti, 30 ünvanında, "Aptek Həyat" MMC-yə məxsus (lisenziya 017379) aptek məntəqəsinin isə təchizat baxımından qüsurları yalnız termometr və hiqrometrlə təmin edilməməsi olsa da, burada aşkarlanmış yararsız dərmanların çoxluğu ciddi narahatlıq doğurur: 13 adda (49 qutu) sertifikatsız, 11 adda (22 qutu) istifadə müddəti bitmiş dərman!

İndi isə Sumqayıt şəhərində keçirilmiş reydlərin nəticələri ilə tanış olaq. Sevindirici haldır ki, 5 aptekdən 4-də şərait baxımından heç bir nöqsan tapılmayıb. Bunlar 34-cü məhəllədə "Məlhəm-FS" MMC-yə məxsus (lisenziya 026196), 2-ci mikrorayon, H.Əliyev prospekti, 32/73 ünvanında "MRV" MMC-yə məxsus (lisenziya 025764), H.Əliyev prospekti, 11/38-də "Rumers" MMC-yə məxsus (lisenziya 025807) və 45-ci məhəllədə "Real Tibb Mərkəzi" MMC-yə məxsus (lisenziya 016110) apteklərdir. Doğrudur, bu əczaxanalarda şərait yaxşıdır. Amma yararsız dərmanlara gəldikdə, vəziyyət heç də ürəkaçan deyil: Bu apteklərdən müvafiq olaraq 22 adda (49 qutu), 14 adda (26 qutu),



13 adda (34 qutu) sertifikatsız dərman, sonuncudan isə 6 adda (10 qutu) sertifikatsız, 3 adda (8 qutu) istifadə müddəti bitmiş preparat götürülüb.

13-cü mikrorayon, Babək küçəsində fəaliyyət göstərən, "ELTD" firmasına məxsus (lisenziya 025892) aptek məntəqəsinin problemləri isə termometr və hiqrometrin olmaması ilə yanaşı, həm də termolabil preparatların saxlanma qaydalarına riayət edilməməsidir.

Sonda yoxlamalar zamanı müsadirə olunmuş yararsız dərmanların statistikasına nəzər salaq. 10 aptekdən ümumilikdə 389 qutu yararsız preparat götürülüb ki, onlardan da 359-u sertifikatsız, 30-u istifadə müddəti bitmişlərdir. Bakı və Sumqayıt üzrə bölgüyə gəldikdə isə, 133 qutu sertifikatsız, 22 qutu istifadə müddəti bitmiş dərman paytaxtın, 226 qutu sertifikatsız, 8 qutu istifadə müddəti bitmiş isə "Gənclər şəhəri"nin payına düşür. Göründüyü kimi, Sumqayıt apteklərində yararsız dərmanlar daha çoxluq təşkil edir.

Onu da qeyd edək ki, Səhiyyə Nazirliyinin Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzi reydləri davam etdirir. Qəzetimizin növbəti saylarında digər apteklərdə aparılmış yoxlamaların nəticələri barədə də məlumat verəcəyik.

**Q.NURİYEV**






BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# Tibbi xidmət gözəldi,

## Növbəti araşdırmamızı Şəkinin 3 tibb

**Q.NURİYEV, Ş.MURADOV**

**Xeyli müddətdir səhiyyə müəssisələrində xəstələrin dərman və yeməklə təminatı, tibbi xidmətin səviyyəsi, sanitar-gigiyenik vəziyyət, eləcə də digər məqamlara aydınlıq gətirmək məqsədi ilə araşdırma aparan "Tibb qəzeti" bu il də öz ənənəsini davam etdirmək niyyətindədir. Beləliklə, yeni ilin bu qəbildən ilk yazısını təqdim edirik. Oxucularımızı Şəkinin 3 tibb ocağı - Mərkəzi Rayon Xəstəxanası, Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası, həmçinin Turan Qəsəbə Sahə Xəstəxanasının vəziyyəti ilə tanış edəcəyik.**




### Mərkəzi Rayon Xəstəxanası

Yadınızdadırsa, ötən ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının iştirakı ilə Şəki MRX-nın Səhiyyə Nazirliyi tərəfindən tikilmiş yeni binasının açılış mərasimi keçirilmişdi. Elə o fikirlə də birbaşa üz tutduq həmin məkana...

Qeyd edək ki, yeni bina öz geniş və abad həyəti, yaraşıqlı xarici görünüşü, gözəl şəraiti, lazımi avadanlıqlarla təminatı baxımından müasir standartlara tam cavab verir. Bir sözlə, burada tibb işçilərinin əhalinin sağlamlığının keşiyində yüksək səviyyədə dayanması üçün hər bir şərait yaradılıb.

Üçmərtəbəli binanın dəhlizləri ilə addımlıya-addımlaya gözəl palatalara və inzibati otaqlara nəzər salırıq. Lakin ustalardan başqa heç kim gözə dəymir. Bir qədər sonra öyrəndik ki, rəsmi açılış olsa da, bina hələ istifadəyə verilməyib. Daha dəqiq desək, mütəxəssislər tibbi avadanlıqları quraşdırmaqla, bəzi son tənzimləmə işləri ilə məşğul idilər. Onlar bildirdilər ki, uzağı bir həftəyə xəstəxana bu yeni məkana göçəcək. Vəziyyəti belə görüb, üz tutduq MRX-nın o biri ünvanına...

Biz mənzil başına çatanda saatın əqrəbləri 11.00-ı göstərirdi. Öncə həyətdə qısa bir müşahidə apardıq. Maraqlıdır ki, yeni binanın artıq hazır olmasına baxmayaraq, burada da təmir işləri gedir. Vəziyyəti belə görüb, ustaları sorğu-suala tutduq. Məlum oldu ki, bəzi şöbələrin yeni binaya köçməsi planlaşdırılsa da, bəziləri burada qalacaq. Ona görə də ayrıca korpusda yerləşən Rayon Doğum Evi, eləcə də MRX-nın bir neçə şöbəsində əsaslı təmir-tikinti işlərinə başlanılıb.

Hələ həyətdə ikən xəstə yanına gəlib-gedənlərin Şəki MRX-da tibbi xidmətin səviyyəsi barədə fikirlərini də öyrənməyə çalışdıq. Əvvəlcə yaşlı bir kişiyə yaxınlaşırıq. Jurnalist olduğumuzu bilməyən müsahibimiz söhbət əsnasında danışır: "Oğlum Əsəb şöbəsində yatır. Həkimlər yaxşı baxırlar, artıq sağalmaq üzrədir. Dava-dərmanın da ki çoxunu xəstəxana verir, amma bəzilərini gərək özünüz alasınız. Gündə üç dəfə yemək verirlər, əgər uzaqda yaşayırsınızsa, xəstəyə yemək gətirməyə də bilərsiniz".

Bu arada atası Terapiya şöbəsində müalicə alan gənc oğlan söhbətə qoşulur: "Xəstəxanaya təzə bina tikiblər, buranı ora göçürdəcəklər. Ondan sonra şərait lap yaxşı olacaq. Dava-dərman məsələsi də çox yaxşıdır, atama lazım olan dərmanların hamısını həkimi özü verir".

Beləcə, həyətdəki reydimizi tamamlayıb, üz tutduq baş həkim Məcid Əliyevin qəbul otağına. Qəzetimizin səhiyyə müəssisələrində apardığı araşdırmaları müntəzəm izlədiyini bildirən müsahibimiz, mövcud vəziyyət barədə qısa arayış verdi: "Yeni binaya hələ köçməməyimiz sırf texniki səbəblərlə bağlıdır. Hazırda mütəxəssislər orada tibbi avadanlıqları quraşdırırlar, yaxın günlərdə şöbələrimizin əksəriyyəti artıq yeni ünvanda olacaq. Orada hər bir şərait var. Onu da deyim ki, darısqallıq olsa da, köhnə binamızda da vəziyyət pis deyil. Bəzi şöbələrimizdə şərait yaxşıdır, bəzilərində isə hazırda təmir işləri aparılır".

Baş həkimlə söhbətimizi yekunlaşdırdıqdan sonra elə onun özünün müşayiəti ilə xəstəxanaya baxış keçirdik. Və ilk araşdırma obyektimiz Qəbul şöbəsi oldu.

Qəbul şöbəsində şərait, demək olar ki, qənaətbəxşdir. Cari təmir işləri aparılıb, lazımi səliqə-sahman yaradılıb. Otağın bir tərəfində içərisində xeyli ilkin tibbi yardım dərmanları olan şkaf var. Qarşı tərəfdən isə xəstələrə pulsuz verilməsi nəzərdə tutulan preparatların siyahısı asılıb. Onu da öyrəndik ki, bu post bir qayda olaraq hər gün növbətçilik prinsipi ilə həkimlərə və tibb bacılarına həvalə olunur. Qrafikə əsasən həmin günün növbətçiləri həkim Dövlət Cəfərova və tibb bacısı Günay Məhərrəmova idi ki, onlar da hər ikisi iş başında idilər.



Daha sonra daxili aptekin vəziyyəti ilə tanış olduq. Sadiq Kazımovun rəhbərlik elədiyi əczaxanada dərman ehtiyatı baxımından olduqca bolluq idi. Üstəlik, qaydalara uyğun olaraq, termolabil dərmanlar soyuducuya, narkotiklər seyfə yerləşdirilmiş, əsas sahə termometr və hiqrometr kimi cihazlarla təmin edilmişdi. Ümumi şəraitə gəldikdə isə, əczaxana müvafiq tələblərə cavab vermir. Belə ki, otaqların hamısı təmirsiz və rütubətlidir. Bir sözlə, dava-dərman bol olsa da, şərait ürəkaçan deyil. Lakin S.Kazımovun dedikləri bizdə nikbin əhval-ruhiyyə yaratdı: "Aptekin şərait probleminin həll olunmasına az qalıb, çünki əczaxananın da yeni binaya köçürülməsi nəzərdə tutulur".





BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# şərait də düzəldi!

## müəssisəsinə həsr etmişik



Daxili apteki tərk elədikdən sonra yolumuzu Kliniki laboratoriyadan saldıq. Burada şərait orta səviyyədə olsa da, nizam-intizam nəzərə çarpırdı. İstifadə olunmuş tibbi tullantıların qaydalara uyğun xüsusi təhlükəsizlik qutularına atılması, onların akt tərtib olunaraq utilizasiyası, eləcə də içəridə yaradılmış səliqə-sahman burada sanitar-gigiyenik normalara lazımi səviyyədə əməl olunmasından xəbər verirdi. Soyuducunu açıb reaktivləri də nəzərdən keçirdik. Hamısı istifadəyə yararlı idi. Yeri gəlmişkən qeyd edək ki, araşdırma zamanı nəinki daxili aptekdə və laboratoriyada, ümumiyyətlə, xəstəxananın heç bir şöbəsində istifadə müddəti bitmiş preparatlara rast gəlmədik.

Artıq nahar vaxtı olduğundan, xəstələrin yeməklə təminatı məsələsi ilə maraqlanmaq üçün bu dəfə üz tutduq qida blokuna. Əvvəla, onu deyək ki, mətbəx öz şəraitinə görə göz oxşayır. Necə deyərlər, hər tərəf tərtəmiz, gül kimi idi. Üstəlik, avadanlıqların da əksəriyyəti yenisi ilə əvəzlənib. Bir sözlə, buranın işlək vəziyyətdə olduğu elə ilk baxışdaca açıq-aşkar hiss edilirdi.

Həmin günün menyusunu nəzərdən keçirdikdən sonra baş aşpaz Məmmədiyyə Həsənovla söhbət elədik. Müsahibimiz bildirdi ki, xəstələrə səhər yeməyində yumurta, kərə yağı, şəkər tozu, çay və çörək verilib: "Nahar artıq hazır olmaq üzrədir - makaron şorbası, düyü sıyığı, toyuq əti ilə qarabaşaq dəmləməsi və kartof püresi. Axşam yeməyi üçün isə əriştə bişirəcəyik".

Mətbəxin işçilərinin "Şəxsi Tibbi Kitabça"larını da vərəqlədik. Onlar hamısı tibbi müayinədən keçmişdilər. O ki qaldı xəstələrə verilən yeməklərdən nümunələrin saxlanılmasına, bu şərtə də əməl olunmuşdu.

Mətbəxdən fərqli olaraq, Nicat Lətifovun rəhbərlik elədiyi ərzaq anbarında şərait yaxşı deyildi. Daha dəqiq desək, məhsulların belə təmirsiz, müvafiq tələblərə cavab verməyən yerdə saxlanılması narahatlıq doğurur. Amma anbardar bildirdi ki, qida bloku yaxın günlərdə yeni binaya köçəcək, ona görə də buranın təmirinə vəsait xərcləmək istəmirik. O ki qaldı ərzaq ehtiyatına, bu baxımdan, sözün əsl mənasında, bolluq idi.



Nəhayət, palatalara baş çəkib xəstələrlə həmsöhbət olduq. Görək, Şəki MRX ilə bağlı onlar hansı fikirdədirlər?

Öncə II Cərrahiyyə şöbəsindəyik. Üç gün əvvəl əməliyyat olunmuş xəstənin dediklərindən: "Narazılıq eləməyə heç bir şey yoxdur. Həkimlər bizə yaxşı baxır, dava-dərmanımızı da verirlər. Burada əsas problem şərait idi, şükür Allaha, o da düzəldi. Səhiyyə Nazirliyi çox sağ olsun ki, Şəki xəstəxanasına o cür gözəl bina tikib".

Daha bir xəstə ilə Kardiologiya şöbəsində söhbət elədik və demək olar ki, eyni fikirləri eşitdik: "Burada olduğum 4-5 gün ərzində heç bir diqqətsizliklə, heç bir problemlə üzləşməmişəm. Sağ olsunlar, bizim üçün nə lazımdırsa, edirlər. Dava-dərmanın da ancaq burada olmayanlarını özüm alıram, qalanları xəstəxanadan verilir".

Əsəb xəstəlikləri şöbəsində yatan xəstə isə daha çox yemək məsələsindən razı qaldığını bildirdi: "Hər şey yaxşıdır. Burada bizə keyfiyyətli, təmiz yeməklər də verirlər, adam iştahla yeyir. Evdəkilərə demişəm ki, gələndə mənə yemək gətirməsinlər".

MRX-dakı araşdırmamızı yekunlaşdırdıqdan sonra üz tutduq başqa bir məkana - Şəki Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına...

### Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası

Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası ilk



növbədə öz gözəl xarici görünüşü ilə diqqəti cəlb edir ki, bu da təsadüfi deyil. Bir müddət əvvəl burada aparılmış əsaslı təmir-tikinti işləri hazırda da davam etdirilməkdədir.

Ətrafa göz gəzdiririk... Həyət abadlığı və səliqə-sahmanı ilə xoş təsir bağışlayır. Daha sonra bir mərtəbədən ibarət olan ayrı-ayrı korpuslara daxil olub, otaqları nəzərdən keçiririk... Hər yerdə şərait gözəldir. Tibbi avadanlıqlarla təminatın yüksək səviyyədə olduğunu da nəzərə alsaq, tərəddüd etmədən demək olar ki, burada xəstələrə təcili tibbi yardım göstərilməsi üçün hər bir imkan var.



Baş həkim Faiq Qədimovla söhbət zamanı onu da öyrəndik ki, bu səhiyyə müəssisəsinin 40-a yaxın işçisi, 10 ədəd isə təcili yardım maşını var və tibbi personal növbətçilik prinsipi ilə günün 24 saatı ərzində əhaliyə xidmət edir.

Beləcə, Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasından olduqca nikbin əhval-ruhiyyə ilə ayrıldıq. Və yön aldıq Turan Qəsəbə Sahə Xəstəxanasına...

### Turan Qəsəbə Sahə Xəstəxanası

Turan Qəsəbə Sahə Xəstəxanası iki korpusdan ibarətdir. Onlardan biri müasirliyi ilə diqqəti cəlb etsə də, digəri öz təmirsizliyi, şəraitsizliyi ilə seçilir. Öncə yeni binaya baş çəkirik. Bizi baş həkim Fatma Piriyeva qarşılayır. Və elə onun özünün müşayiəti ilə xəstəxanaya baxış keçiririk...

Binanın hər iki mərtəbəsindəki otaqlara bir-bir nəzər yetiririk. İstər şərait, isərsə də tibbi avadanlıqlar və dərman vasitələri ilə təminat, doğrudan da, çox gözəldir.

*(Ardı səhifə 14-də)*

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# Arif Babayev: «Savadlı həkimlər



***Bu dəfə müsahibim ecazkar səsi ilə özünəməxsus ifaçılıq üslubu yaratmış ustad xanəndədir. Muğamı həyat tərzinə çevirmiş, "Şur"u, "Arazbarı"sı, "Qarabağ şikəstəsi" ilə milyonların qəlbini fəth etmiş, "Segah"a heykəl ucaltmış sənətkardır. Təsnif və xalq mahnılarının mahir ifaçısı, opera səhnəmizin Məcnunu, Şah İsmayılı, Aşıq Qəribi, Kərəmidir. Milli musiqimizin inkişafı sahəsində mühüm xidmətləri olan, yüzlərlə tələbəyə sənətin sirrlərini xüsusi sevgi ilə öyrədən təcrübəli müəllimdir. "Şöhrət" və "İstiqlal" ordenli professor, Xalq artistidir. Mehriban, səmimi, ədalətli, humanist, təvazökar... insandır. Qarabağlı Arif Babayevdir.***

***Qarabağda doğulan və ya doğulmayan hər bir azərbaycanlının qəlbində mütləq Qarabağ sevgisi var. Amma mən indiyə qədər "Qarabağda doğulmuşam" sözlərini onun qədər xüsusi fəxr hissi ilə, sevgi ilə deyən başqa bir insanla rastlaşmamışam. "Vətən" sözü onun dilində o qədər səmimi səslənir, həsrət gözlərində o qədər aydın oxunur ki, bunu sözlərlə ifadə etmək mümkün deyil. Yurdunun məcnunu, böyük ürəkli vətəndaşdır, Qarabağın zil səsi Arif Babayevdir müsahibim.***

**- Səhhətiniz necədir?**

- Allaha şükür edirəm ki, səhhətim yaxşıdır. Sağlamlığımla bağlı ciddi şikayətim yoxdur.

**- Ümumiyyətlə, həkimə müraciət etməklə aranız necədir?**

- Mən həmişə vaxtlı-vaxtında həkimə gedirəm. Səhhətimdən şikayətim olsa da, olmasa da 6 ayda, heç olmasa ildə bir dəfə tam tibbi müayinədən keçirəm. Hesab edirəm ki, bu çox vacibdir. İnsan daim öz sağlamlığının qayğısına qalmalıdır. Hansısa xarici ölkəyə işlə bağlı səfər edərkən imkan daxilində orada da müayinə olunuram.

Bir müddət əvvəl Polad Bülbüloğlunun diskinin təqdimat mərasimində iştirak etmək üçün Türkiyəyə səfər etmişdim. Orada olduğum müddətdə həkim müayinəsindən də keçdim. Oradakı mütəxəssislərin mənə bircə məsləhəti oldu ki, 20-30 kiloqram arıqlayım. Azərbaycanda da arıqlamaq məsələsi bir az fərqli qarşılanır. Azca arıqlayan kimi deyirlər ki, ya xəstədir, ya da nə isə problemi var.

Türkiyədən gələndən sonra pəhriz saxladım, 10 kiloqram arıqladım. Məni görən birinci soruşurdu ki, nə olub sənə, xəstə idin? Deyirdim ki, vallah, xəstə deyiləm, bir az çəkimi azaldıram. Kimi inandırasan? Bu soruşdu "nə olub?", o dedi "sənə belə yaraşmır". Mən də camaata cavab verməkdən yoruldum, arıqlamaq fikrindən daşındım, pəhrizi də dayandırdım.

Amma yeri gəlmişkən, hər kəsə mütəmadi olaraq həkimə müraciət etməyi, müayinədən keçməyi məsləhət görürəm. Çünki xəstəlik tez aşkarlansa, onun qarşısını almaq, müalicə etmək daha asan olur. Yaşamaq üçün bunlara riayət etmək çox vacibdir.

**- Deyirlər ki, idmanla məşğul olmaq sağlamlığın başlıca şərtlərindən biridir. Bu fikirlə razısınız?**

- Əlbəttə, razıyam. İnsanın gümrah, sağlam olması üçün idman vacib amildir. Bəlkə də kənardan görünüşümə baxanlar mənim idman edəcəyimi heç vaxt düşünməz və buna inanmazlar. Ancaq mən 40 ilə yaxındır ki, idman edirəm. Hər səhər tezdən 6-da durub dənizin kənarına gedirəm və bir neçə kilometr yeriyirəm. Mümkün olmayanda və ya hava şəraiti imkan verməyəndə evdə təxminən 40 dəqiqəyə qədər idman edirəm. Hər bir insan idmanla məşğul olmalıdır. Mən idman etməsəm, yaşaya bilmərəm.

Amma bəzən internetdə yayılan müxtəlif xəbərlər adamı çaşbaş salır. Bu yaxınlarda mənə dedilər ki, səhər tezdən durub gəzmək yaxşı deyil. Guya bu, insanın səhhətinə mənfi təsir edir, infarkta aparıb çıxarır. Mən də qərara gəlmişəm ki, artıq dəniz kənarında yeriməyə axşamlar gedəcəyəm.

**- Bəs, səsinizi qoruyursunuz?**

- Səsim olmasa, mən kimə lazımam? Səsimi həmişə qorumuşam. Ona görə də bu yaşda hələ oxuya bilirəm. Düzdür, gənc ikən oxuduğum kimi oxumuram. Amma səsin bütövlüyü hələ qalır. Dəvət edildiyim hər yerə getməsəm də, bəzi proqramlarda, dövlət tədbirlərində çıxış edirəm.

Özümü çox soyuqdan da, çox istidən də qoruyuram. İnsanların əksəriyyətində bir geyim ədası olur. Bəzən hava nə qədər soyuq olsa da, qəşəng görünmək üçün istəyirsən kostyum, köynək geyinəsən, qalstuk taxasan. Gənc yaşlarımda ədalanmaq üçün bəzi şeylərə diqqət etməsəm də, indi xüsusi fikir verirəm. Hava şəraitinə uyğun geyinirəm.

**- Tarixdə ilk dəfə muğam professoru adını alan Arif Babayev üçün muğam nədir?**

- Muğam mənim üçün hər şeydir. Muğam elə bir zəngin dəryadır ki, orada elm var, fəlsəfə var, hikmət var, dərin məzmun və məna var. Muğam bizim xalqın ana laylasıdır. Mən hesab edirəm ki, insan susuz yaşaya bilmədiyi kimi, musiqisiz də yaşaya bilməz. Bizim milli musiqimizin tacı isə muğamımızdır.

Əliağa Vahid çox gözəl deyib ki, batsın o millət ki, onun musiqisi yoxdur. Musiqi özü də insan sağlamlığına müsbət təsir edən mühüm amildir. Milli musiqimizi, muğamımızı dinləyəndə insanın beyni dincəlir, ruhu yenilənir, bütün gün onun təsirində, xoş əhval-ruhiyyədə olur. Muğam rahatlıq gətirir, insanın daxili dünyasına təsir edir, onu mənən saflaşdırır. Muğam xalqımızın, mədəniyyətimizin, bir sözlə, Vətənimizin ən gözəl təqdimat vasitələrindən biridir. Bu qeyri-adi musiqini böyük sənətkarlarımız yaradıb və illərlə qoruyaraq, yaşadaraq, bizlərə təhvil verib. Bizim borcumuz da onu layiqli səviyyədə gənclərə, onlar vasitəsilə gələcək nəsillərə ötürməkdir.

**- Necə düşünürsünüz, sələflərinizin sizə əmanət etdiyi xəzinə bu gün etibarlı əllərdədirmi? İstedadlı gənclərimiz varmı?**

- Allaha şükür ki, yaxşı səsi olan cavanlarımız var. Doğrudur, gənclər məndən bu fikrimə görə inciyə bilərlər. Amma qeyd etməliyəm ki, hələ Xanın, Mütəllimin, Seyidin, Yaqubun səsi kimi səslər tapa bilməmişəm. O təmiz, pak səsləri dinləyəndə fikirləşirsən ki, ilahi, bu, möcüzədir, tanrı vergisidir.

Ancaq ümid verən, istedadlı gənclərimiz çoxdur. Sadəcə, məni narahat edən bir məsələ var ki, onlar toya çox meyil edirlər. Toya da baş qarışanda öz üzərlərində lazımi qədər işləyə bilmirlər. Səsi olan xanəndə Allahın verdiyi bu dəyərli neməti qiymətləndirməli, hərtərəfli olmaq, tarixdə qalmaq üçün daim çalışmalı, öyrənməlidir, tənbəllik etməməlidir.

Qeyd edim ki, istedadlı gənclərin üzə çıxmasında keçirilən muğam müsabiqələrinin, Beynəlxalq Muğam Festivalının böyük rolu oldu. Son illər Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın diqqəti sayəsində muğam musiqimiz yüksək səviyyədə təbliğ edildi. Mehriban xanımın gördüyü işlər nəticəsində milli musiqimiz geniş miqyasda tanındıldı, dünya muğam sənəti ilə maraqlanmağa başladı.

İki cilddən ibarət "Muğam ensiklopediyası"nın yaradılması da Mehriban xanımın milli musiqimizə olan sevgisinin, qayğısının göstəricisidir. Həmin ensiklopediyanın birinci cildinə muğam haqqında məlumatlar, ikinci cildinə isə XX əsrin əvvəllərindən indiyədək muğam ifaçılarının ifalarının yazıldığı 125 disk daxil edilib. Bu gün muğam ustalarının ifaları qorunur. Muğam həmişə var olub, sevilib, ancaq bugünkü səviyyədə heç vaxt tanıdılmayıb. Tam əminliklə deyə bilərəm ki, indi bizim böyük sənətkarlarımızın ruhu şaddır.

Bu gün bütün sənət adamlarına, o cümlədən də xanəndələrə dövlət səviyyəsində böyük diqqət göstərilir. Dünyanın heç bir yerində sənət adamları Azərbaycanda olduğu qədər dövlət qayğısı ilə əhatə olunmayıb. Bizim üçün hər cür şərait, imkan yaradılıb. Şəhərimizin ən gözəl yerində tikilmiş Beynəlxalq Muğam Mərkəzi illərdir arzusunda olduğumuz bir mə-

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# cəmiyyət üçün ən lazımlı insanlardır»

kandır. Bu Mərkəz muğam ifaçılarının evidir.

**- Musiqi janrları arasında tək muğamı bəyənirsiniz, yoxsa xoşladığınız digər janrlar da var? Hər kəsin sevə-sevə, heyranlıqla qulaq asdığı Arif Babayev kimləri dinləyir?**

- Mən bütün janrlarda olan yaxşı musiqiləri dinləyirəm, sevirəm. İstər caz, istər opera, istər müasir müsiqiləri. Təəssüf ki, bu gün yaxşı və pis anlayışları bir az qarışıb. Xüsusən efirlərdə belə hallara çox təsadüf edilir. Bəzən elə şeylər eşidirəm ki, donub qalıram. O gün efirdə bir müğənni bildirir ki, hamı mənim qeyri-adi səsim olduğunu deyir. Deyir ki, "mən də bilirəm ki, səsim qeyri-adidir, amma mənə belə deyəndə çox utanıram". Mən də fikirləşdim ki, bəlkə həqiqətən bunun qeyri-adi səsi var, qoy bir də dinləyim. Qulaq asıb görürəm ki, səszad yoxdur.

Mən belə "qeyri-adi" səslərdən, onların oxuduğu "yaxşı" musiqidən danışmıram. Həqiqi yaxşıları, gözəl ifaları dinləyirəm.

**- Uzun illər Dövlət Opera və Balet Teatrında çalışmısınız. Məcnun, Kərəm, Şah İsmayıl, Aşıq Qərib kimi obrazlar yaratmısınız. Daha çox hansı obrazı sevərək canlandırmısınız? Qəhrəmanlardan hansının xarakterində özünüzə yaxınlıq hiss etmisiniz?**

- Məni boy-buxunuma görə daha çox Şah İsmayıla bənzədirdilər, bu rola yaraşdırırdılar. Əslində, bütün rollarım mənə əzizdir və hər birini sevə-sevə oynamışam. Amma mənim sevimli operam "Leyli və Məcnun"dur. Bu opera ilə mən ürəyimi boşaltmışam. Bütün muğamlar var bu operada. Xarakterimi də Məcnuna daha yaxın hiss edirəm.

Mənim əvvəldən ən böyük arzum Məcnunu oynamaq idi. İlk dəfə Ağdamda oynadım bu rolu. Amma böyük səhnədə, opera səhnəsində oxumağı arzulayırdım. Allah mənim bu arzumu gözümdə qoymadı. Məni güclü səsim olduğuna görə, operaya dəvət etdilər.

Ümumiyyətlə, mən nəinki "Leyli Məcnun"a, Üzeyir Hacıbəyovun bütün yaradıcılığına, xüsusən onun uvertüralarına heyranam. Mən dünyanın bir çox ölkələrində olmuşam və həmin ölkələrdə ayrı-ayrı millətlərin nümayəndələrinin 4-5 min nəfərlik konsert salonlarında Üzeyir bəyin əsərlərini ayaq üstə alqışladığını görmüşəm və sevincdən, xoşbəxtlikdən, milli musiqimizin böyüklüyü qarşısında ağlamışam.

Bizim böyük sənətkarlarımız çox olub. Ancaq Üzeyir Hacıbəyov təkdir. O, təkrarolunmaz dahidir. Tanrı onun kimi birini bir dəfə yetirib, onu da Azərbaycan xalqına bəxş edib.

Bayaq dövlət səviyyəsində sənətkarlara yüksək diqqətdən danışdım. Üzeyir Hacıbəyovun əsərlərinin nəfis şəkildə yenidən nəşri də bu qayğının bariz göstəricisidir.

Onu da qeyd edim ki, mən Dövlət Opera və Balet Teatrında 30 il çalışmışam. Amma vaxtı gələndə, bir az kökəldiyimi hiss edən kimi öz xoşumla teatrdan ayrılmışam və yerimi gənclərə vermişəm.

**- Neçə illər Məcnun rolunu ifa etmiş sənətkarın fikrincə, məhəbbət insanı həqiqətən dəli edə bilərmi?**

- Əlbəttə, edər. Bəs, "Leyli və Məcnun" necə yaranıb? Əsərlərin əksəriyyəti həyatdan götürülmüş real hadisələr əsasında yaranır. İnsanın sevdiyi qızı ona verməsələr, desələr ki, sən kasıbsan, bizim qıza layiq deyilsən, əlbəttə ki, dəli olar. İki gənc bir-birini çox sevirsə və onların qovuşmasına imkan vermirlərsə, bu aşiqlərə necə təsir edər?

Hətta bu gün də belə hadisələr baş verir. Bir dəfə sahildə dostlarla gəzirdik. Təsadüfən gənc bir oğlanla söhbət etdik. Bizə dərdini açdı. Dedi ki, sevdiyi qızın anası onların ailə qurmasına heç cür razı olmur. Sonra da ondan ayrı yaşaya bilmədiyini bildirdi. Sözünü bitirdi, bizdən bir az aralanmışdı ki, gördük oğlan yoxdur, özünü dənizə atıb. Bu, mənim gözlərimin önündə



baş vermiş hadisədir.

Məhəbbət insanı dünyanın ən xoşbəxti də edər, ən bədbəxti də. İnsanı yaşadar da, öldürər də. Məhəbbət insanı ağıllı da edər, dəli də.

**- Ailənizdə sizdən başqa belə gözəl səsi olan var idimi?**

- Atamın yaxşı səsi olub. Düzü, bu haqda hamı danışsa da, mən onun oxuduğunu eşitməmişdim. İnsanlar danışdıqca, məndə atamın səsinə qulaq asmağa daha çox maraq yaranırdı. Bir dəfə təsadüfən Ağdamdakı həyətimizdə atamın segah oxuduğunu eşitdim. Gizlincə sona qədər onu dinlədim. Həmin gün əmin oldum ki, deyilənlərin əsası var. Həm də səsimin mənə həqiqətən atamdan keçdiyini dəqiqləşdirdim.

Atamla mənim aramda çox böyük sərhəd var idi. İndi düşünürəm ki, əslində, o qədər sərhəd saxlamaq lazım deyilmiş. Atam mənim oxumağıma razı olmurdu. Bir dəfə rayonda toylardan birində oxudum. Hamı təəccüblə, heyranlıqla dinlədi. Atam isə toydan evə qayıtdıqdan sonra mənə dedi ki, get oxu, ali məktəbə qəbul ol, elm qazan. Mən də guya razılaşdım, "yaxşı, oldu" dedim, amma öz işimdə idim. Musiqidən, səsdən ayırmaq mümkün deyildi məni. Nəticəsi də bu gün nail olduqlarım, qazandıqlarımdır. Yaxşı oxuyanda, xalqın sevimlisi olanda ata da səninlə fəxr edir.

Mən əslində atamın da arzusunu yerinə yetirdim. Mədəniyyət və İncəsənət İnstitutuna qəbul oldum və uğurla bitirdim.

**- Yüzlərlə tələbə yetişdirmisiniz, amma övladlarınızdan sizin yolunuzu davam etdirən yoxdur. Bəs, nəvələrinizdən necə, səsi olan varmı? Sizin onlara məsləhətiniz nədir?**

- Doğrudur, övladlarım tamamilə fərqli sənət sahibləridir. Bir qızım həkimdir, digər qızım müəllim. Oğlum isə hüquq və iqtisadiyyat üzrə iki ali təhsil alıb. Əslində, mən övladlarımın hamısının həkim olmasını arzulayırdım. Amma öz istəklərinə uyğun təhsil alıblar, hamısı da işləyir.

Altı nəvəm var. Onların nazını çəkməyə hər zaman hazıram. Birinə öz adımı vermişəm. Kiçik nəvəmin adı isə Aqildir. Mənə elə gəlir ki, onun yaxşı səsi var. Amma bu, çox çətin sənətdir, istəmirəm hansısa bu sənətlə məşğul olsun. Mən də atam kimi onların elmlə məşğul olmasını istəyirəm.

Aralarında hansınınsa fövqəladə səsi olsa, qarşı çıxmaram, deyərəm oxusun. Amma başqalarına irad tutduğum halda, ailəmdən kiminsə məni qane etməyən səsi olsa, oxumasına göz yuma bilmərəm.

**- Hansı müsbət və mənfi cəhətləriniz var?**

- Mən mülayim adamam. Həmişə böyük-kiçik yolunu saxlayan olmuşam. Bəd əməlləri, insanlara pislik etməyi heç vaxt bacarmamışam. Çalışmışam imkan daxilində yaxşılıq edim, bacardıqca əl tutum. Sənətimi öyrətməkdən heç vaxt çəkinməmişəm. Ölkəmizdə mənim saysız-hesabsız tələbələrim var və hamısına sənətin sirrlərini öyrətməyə çalışmışam.

Bir də mən əgər səhv etmişəmsə - ailədə də, kənarda da - səhvimi anladığım an etiraf edirəm. Elə adamlar var ki, səhv də olanda, düz də olanda, deyir elə mən deyəndir.

Amma mənfi cəhətlər də var ki, onlar insanın canına-qanına hopub, dəyişə bilmirsən. Mənfi cəhətlərimdən biri odur ki, tez özümdən çıxanam. Bir şey olanda tez əsib-coşuram. Amma yaxşıdır ki, tez də sakitləşirəm. Bir də tez küsənəm. Qarşımdakı insanda pis niyyət hiss edən kimi öz-özümə küsürəm və ondan üz çevirirəm.

Çatışmayan cəhətlərimi daim düzəltməyə çalışıram. Nə qədər nail oluram, bilmirəm.

**- Bu gün cəmiyyətimizdə sizi daha çox nə narahat edir?**

- Harınlıq, acgözlük, dünya malına hərislik. Elə insanlar var ki, mal-mülkünün sayı-hesabı yoxdur, amma gözü doymur. Deyirlər hər şey mənim olsun.

Bir də kiməsə pislik edən insanları görməyə gözüm yoxdur.

*(Ardı səhifə 17-də)*

BAŞ SPONSOR: HB Co LTD
*Sağlam gələcək - bizimlə gələcək!*
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# ÜST İcraiyyə Komitəsi təşkilatın baş direktoru vəzifəsinə Marqaret Çanın namizədliyini təsdiq etdi




Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) İcraiyyə Komitəsinin Cenevrədə keçirilmiş 130-cu sessiyasının nümayəndələri təşkilatın Baş direktoru vəzifəsinə Marqaret Çanın namizədliyini təsdiq ediblər. Beləliklə, Marqaret Çan ikinci dəfə bu vəzifəyə seçilmək üçün irəli sürülüb.

Bu qərar Ümumdünya Səhiyyə Assambleyasının 2012-ci il mayın 21-26-da keçiriləcək 65-ci sessiyasının müzakirəsinə veriləcək. Məhz həmin sessiyada növbəti müddət üçün Baş direktor vəzifəsi ilə bağlı qəti qərar qəbul olunacaq.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru vəzifəsinə namizədlərin irəli sürülməsi müddəti ötən il noyabrın 15-də tamam olmuşdu və o vaxtadək yalnız bir nəfərin - indiki Baş direktorun namizədliyi irəli sürülmüşdü. Bu təklif Çindən gəlmişdi.

Çinli Marqaret Çan Kanada və Sinqapur universitetlərində tibb təhsili alıb, sonra bir neçə il Honkonqun səhiyyə departamentinə başçılıq edib. O, Ümumdünya Səhiyyə Təşkilatında artıq çoxdan işləyir: 2006-cı ildə ilk dəfə ÜST-nin başçısı vəzifəsinə təyin edilənədək Baş direktorun müavini olub, əsasən "quş qripi" problemi ilə məşğul olub.

# Danimarka dəri xərçəngi üzrə dünyada birincidir

Danimarkada günəşli günlərin az olmasına baxmayaraq, ölkə melanoma (dəri xərçəngi) hallarının sayına görə dünyada birinci yerə çıxıb. Bu kədərli məlumat Ümumdünya Səhiyyə Təşkilatının yenicə açıqlanmış məlumatında yer alıb. Belə ki, Danimarkada yüz min sakinə 24 melanoma xəstəliyi qeydə alınıb. Bu siyahıda ikinci yerdə olan Avstraliyada həmin göstərici 21, İsveç və Almaniyanın hər birində 11 nəfər təşkil edib.

Siyahıya başçılıq edən Danimarkada bu təhlükəli onkoloji xəstəlik bütün yaş kateqoriyaları arasında geniş yayılsa da, 15-39 yaşlı xanımlar ona daha meyillidirlər. ÜST-nin statistikasına görə, hər il 1800-dən çox danimarkalı qadın bu xəstəliyə tutulur ki, onların da təxminən 200-ü 39 yaşına çatmamış gənc qadınlardır və belə qadınların sayı ilbeil artır.

Danimarka Onkoloji Xəstəliklərlə Mübarizə Cəmiyyətinin üzvü Anya Filipin fikrincə, belə halların əksəriyyətinin qarşısını günəş şüalarından qorunmaqla, solyarilərdən imtina etməklə almaq mümkündür.

Danimarka alimlərinin yekdilliklə gəldikləri qənaətə görə, Şimal qadınları arasında dəbdə olan və ÜST-nin rəsmən kanserogen müəssisələr adlandırdığı solyarilər çox təhlükəlidir.

# ÜST yetkinlik yaşına çatmayanlarla nikahların qarşısını almağa çağırır

Cenevrədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) İcraiyyə Komitəsinin 130-cu sessiyasında nümayəndələrin müzakirəsinə təqdim edilmiş mövzulardan biri erkən nikahlar, yeniyetmə və gənc yaşlarında hamiləlik məsələsi olub.



ÜST Katibliyinin bu mövzuya həsr edilmiş məruzəsində bildirilir ki, hazırda 15-19 yaşlarında qadınların doğduğu körpələrin sayı ildə 16 milyona çatır. Bu, dünyada doğulan uşaqların ümumi sayının 11 faizi deməkdir. Gənc anaların 95 faizi gəlirlərin məbləği orta və aşağı səviyyədə olan ölkələrdə yaşayır.

Əksər ölkələrdə yeniyetmə yaşda (10-14 yaş) hamiləlik və doğuş halları nisbətən azdır. Buna baxmayaraq, Böyük Səhradan cənubda yerləşən bəzi Afrika ölkələrində uşaq dünyaya gətirərkən yaşı 15-ə çatmamış qadınların nisbi sayı bəzən 12 faizə çatır. Latın Amerikasında bu cür hallar üç faiz təşkil edir.

ÜST dünya dövlətlərinə müraciət edərək, hökumətləri 18 yaşa çatmamış şəxslərlə nikahların qarşısını almağa yönəlmiş səyləri artırmağa çağırıb. Bu cür nikahlar, bir qayda olaraq, yoxsulluğun və qadın hüquqlarına məhəl qoyulmamasının, o cümlədən onların təhsil almaq imkanları sahəsində ayrı-seçkiliyin nəticəsidir.

Qurum xüsusi vurğulayıb ki, yaşı 15-dən aşağı olan qadınlar hamiləlik və doğuş dövründə ölümlə nəticələnə biləcək yüksək riskə məruz qalırlar. Onlar üçün bu risk yaşlı hamilə qadınlarla müqayisədə 5 dəfə yüksəkdir.

# Tibbi xidmət gözəldi, şərait də düzəldi!

*(Əvvəli səhifə 11-də)*

Rəhbərlik elədiyi tibb ocağında hərəsində 5 çarpayı olmaqla Doğum, Terapiya və Pediatriya şöbələrinin fəaliyyət göstərdiyini bildirən baş həkim ümumi məlumat verir: "Üç il əvvələ qədər köhnə binada idik, 1971-ci ildə inşa olunmuş həmin korpusda şərait baxımından vəziyyət olduqca pis idi. Lakin 2009-cu ildə Səhiyyə Nazirliyi tərəfindən bu yeni bina tikildi və şərait problemimiz həll olundu. Düzdür, köhnə korpus stasionar, təzə bina isə ambulator xidmət üçün nəzərdə tutulub. Amma buna baxmayaraq, xəstələrimizin əksəriyyətini burada qəbul edirik. Çünki burada olduqca gözəl, hər bir şəraiti olan palatalarımız var".



F.Piriyeva onu da qeyd etdi ki, Turan qəsəbəsi ilə yanaşı, ətrafdakı daha 7 kəndin əhalisinə tibbi xidmət göstərən xəstəxanada peyvənd otağı, laboratoriya, stomatoloji kabinet, mama otağı, manipulyasiya otağı, pediatriya kabineti və terapevt otağı fəaliyyət göstərir: "Ümumilikdə 42 nəfər işçimiz var, onlardan 4-ü həkim, 21-i orta tibb işçisidir. Doğrudur, bu gün xəstəmiz yoxdur. Amma təzə bina tikildikdən sonra bizə müraciət edənlərin sayı artıb və onlara layiqincə tibbi xidmət göstərmək üçün imkanımız da var, şəraitimiz də. O ki qaldı dərman vasitələrinə, onları həmişə vaxtlı-vaxtında Mərkəzi Rayon Xəstəxanasından götürürük".

Oxucularımıza məlumdur ki, araşdırma apardığımız səhiyyə müəssisələrində digər məsələlərlə yanaşı, sanitar-gigiyenik normalara əməl olunub-olunmamasını da gözdən keçiririk. Şəkinin baxış keçirdiyimiz hər üç tibb ocağında da bu məqama diqqət yetirdik. Doğrudur, MRX-nın bəzi şöbələrində təmir işlərinin aparılması təmizlik baxımından müəyyən problemlərlə müşayiət olunur. Amma konkret sterilizasiya məsələsinə gəldikdə, heç bir nöqsanla qarşılaşmadıq.



O ki qaldı Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyası ilə Turan Qəsəbə Sahə Xəstəxanasına, yuxarıda da qeyd elədiyimiz kimi, onların hər ikisində şərait, təmizlik, səliqə-sahman baxımından hər şey öz qaydasındadır. Onu da qeyd edək ki, bu səhiyyə ocaqlarında birdəfəlik tibbi ləvazimatlardan istifadə olunur və MRX-da olduğu kimi, burada da tullantılar qaydalara uyğun olaraq yandırılır.

**P.S. Qəzetimiz çapa gedərkən öyrəndik ki, Şəki Mərkəzi Rayon Xəstəxanasının I və II Cərrahiyyə, Göz xəstəlikləri və Onkologiya şöbələri, həmçinin qida bloku artıq yeni binaya köçürülüb.**

(Əvvəli səhifə 8-də)

# Həkimlərin bir imtahan ili

**Bunun rüşvətxorluq hallarının yaranmasına gətirib çıxaracağını, kimlərinsə sertifikasiya prosesindən şəxsi maraqları naminə istifadə edəcəyini və s. deyənlər çox idi. İnsanlar arasında dolaşan bu cür fikirlərin əsassız olmasına cəmiyyəti inandırmaq üçün bir il kifayət etdimi?**

- Son bir il ərzində sertifikasiya prosesi barədə ən bədbin fikir söyləyən skeptiklər belə öz mövqelərinə yenidən baxmağa məcbur olublar. Belə ki, səhiyyə mütəxəssislərinin sertifikasiya prosesinə məsuliyyətlə yanaşmaları, yazılı test imtahanlarına və müsahibələrə ciddi hazırlaşmaları, kitabxanalara yenidən kütləvi axının başlaması, fikir mübadilələri və müzakirələrin aparılması bütün bədbin proqnozları alt-üst etdi. Sertifikasiya prosesi təcrübəli səhiyyə mütəxəssisləri tərəfindən ixtisas səviyyəsini, yüksək peşə hazırlığını bir daha sübut etmək, gənc mütəxəssislər tərəfindən isə özlərini təsdiq etmək yolunda onlara fayda verəcək, yeni imkanlar açacaq, hamı üçün bərabər imkanların yaradıldığı sınaq kimi qəbul olunur.

Təsadufi deyil ki, Səhiyyə Nazirliyinin "Qaynar xətt"inə sertifikasiya imtahanları ilə bağlı bir şikayət belə daxil olmayıb. Bu günə kimi imtahan verən, yaxud da imtahandan kəsilən, habelə əmək müqaviləsi pozulan şəxslərin özləri belə, sertifikasiya imtahanlarının cavablarının satılması, yaxud da imtahan ərəfəsində neqativ halların olmasına dair şikayətlənməyiblər.

Hətta yüzlərlə səhiyyə mütəxəssisi könüllü olaraq sınaq imtahanlarında və sertifikasiya prosesində iştirak etmək üçün bizə müraciət edirlər.

Aidiyyətli şəxslər sertifikasiya prosesinin həqiqi məqsədini və mahiyyətini tez bir zamanda anladılar və təqdir etdilər. Əslində, bir çoxları üçün bu proses gözlənilən idi, çünki səhiyyə mütəxəssislərinin bilik və bacarıqlarının imtahanlar vasitəsilə yoxlanılması praktikası bütün dünyada geniş tətbiq olunur.

Xüsusən KİV-in sertifikasiya ilə bağlı məsələlərə həssaslıq və diqqətlə yanaşması da müsbət məqam kimi vurğulanmalıdır. Bu, bir daha göstərdi ki, ayrı-ayrı insanların məlumatsızlıqdan, yaxud subyektiv maraqları naminə yaydıqları, heç bir sübut və dəlilə söykənməyən böhtanlarına baxmayaraq, ümumilikdə bu proses cəmiyyətin bütün təbəqələri tərəfindən pozitiv təşəbbüs kimi dəyərləndirilir.

(Əvvəli səhifə 5-də)

# Tibb təhsili yeniliklər yolunda

İlbəil bu sistemlə təhsil alan tələbələrin sayı artacaq. Hələlik 2 imtahan zalı və 210 kompyuter imtahanların keçirilməsinə kifayət edir. Gələcəkdə 200 kompyuterlə təchiz edilmiş yeni zal yaradılacaq. Ümumilikdə, 350-400 kompyuterlə hər semestrdə 6500-6600 tələbə imtahan verə biləcək ki, bu da 52-53 min imtahan vərəqinin oxunmasının avtomatlaşdırılması deməkdir.

**- İmtahan suallarını kimlər hazırlayır?**

- Suallar kafedralar üzrə seçilmiş bacarıqlı müəllimlər tərəfindən hazırlanır. Testlərin məxfiliyi qorunur. Bəzən kafedrada min və daha çox sual tərtib edilir və bizə təqdim olunur. Onların arasından bizim test bankı müəyyən qədərini seçir və onların bir qismindən imtahanlarda istifadə edilir.

**- Bəs, tələbələrin mübahisəli suallarla əlaqədar şikayəti yaranarsa, bu araşdırılırmı?**

- Bəli, hər bir tələbənin imtahandan çıxdıqdan sonra mübahisəli suallarla əlaqədar apellyasiya vermək hüququ var. Bu, əlbəttə, imtahanın yenidən keçirilməsi deyil. Tələbənin verdiyi cavablar kompyuterin yaddaşında qalır. Apellyasiya verildikdə həmin cavablar çap edilir və fakültənin dekanının, müəllimin, tələbənin və komissiya üzvlərinin iştirakı ilə tələbənin haqlı olub-olmaması müəyyənləşdirilir. Bəzən tələbə haqlı olur, bəzən isə yox. Ancaq bütün şikayətlər araşdırılır.

**- Tibb təhsili sahəsində qazanılmış ən ciddi uğurlardan biri də rezidentura təhsil sisteminə keçiddir. Ötən il rezidenturaya ilk qəbul imtahanı keçirildi. Bu yeni sahə üzrə tədrisin səviyyəsini necə qiymətləndirirsiniz? Kifayət qədər kadr potensialı varmı?**

- 2009-cu ildə qəbul edilmiş "Təhsil haqqında" Qanunda tibb təhsili 2 mərhələdə göstərildi: baza tibb təhsili və mütəxəssis hazırlığı, yəni rezidentura tibb təhsili. Qanunda rezidentura təhsili 2-5 il nəzərdə tutulub. Səhiyyə Nazirliyinin razılığı ilə 40 ixtisas üzrə rezident hazırlığına başlanılıb. Ötən il tələbələrimizin 30-35 faizi - 1100 nəfərə qədəri rezidentura təhsili almaq üçün sənəd vermişdi. Onlardan 800 nəfərdən çoxu keçid balını keçdi. Ölkə üzrə 314 nəfər rezidenturaya qəbul olunub ki, onlardan da 306 nəfəri ATU-nun məzunlarıdır.

Artıq 4 aydır ki, rezidenturada xüsusi proqram üzrə təhsil keçilir. Birinci il ümumi fənlər üzrə hazırlıq aparılır. İkinci ildən ixtisas üzrə dərslər başlayacaq.

Qeyd edim ki, bu sahədə müəyyən hazırlıqlar həyata keçirilmişdi. Proqram, baza təminatı, kadrlar, hazır məzun təminatı da var idi. Əlbəttə, ölkəmiz üçün yeni hadisə olduğundan rezidentura təhsili prosesində qarşıya müəyyən çətinliklər çıxa bilər. Bu çətinliklər, problemlər tədricən aradan qaldırılacaq. Bunun üçün bu sahədə təcrübəsi olan digər ölkələrin universitetlərinin köməyindən istifadə etmək imkanlarımız var. Qeyd edim ki, Səhiyyə Nazirliyinin xətti ilə bu yaxınlarda rezidentura üzrə təhsil verən bir qrup müəllim heyəti Ankara şəhərində fəaliyyət göstərən Hacettepe Universitetinə 10-15 günlük praktikaya göndərilib. Növbəti dəfə isə xarici ölkələrin bu sahədə uzun müddətli təcrübəsi olan mütəxəssisləri müəyyən seminarlar keçmək məqsədi ilə ölkəmizə dəvət olunacaq. Artıq ATU-da müəllim kimi fəaliyyət göstərən gənclər arasında Türkiyədə və Avropanın bir sıra ölkələrində təhsil almış, rezidenturanı bitirmiş mütəxəssislərimiz var. Düşünürük ki, qarşıya çıxan istənilən çətinlikləri aradan qaldırmağa qadirik. Bunun üçün həm kadr potensialımız var, həm gündən-günə müasirləşən, dünyanın ən inkişaf etmiş ölkələrinin klinikaları, xəstəxanaları ilə müqayisə edilə biləcək tibb müəssisələrimiz var. Bütün bunlarla yanaşı, ən vacib amil - təhsilə, öyrənməyə həddən ziyadə çox meyli olan Azərbaycan gəncliyi var.



***

Müsahibədən sonra test üsulu ilə imtahan verən tələbələrdən də bir neçəsinin fikirlərini öyrəndik. Koridorda imtahan zalına girmək üçün gözləyən tələbələrə yaxınlaşdıq. Hər biri yeni qayda ilə imtahanların keçirilməsindən ağızdolusu danışdı:

- Bu sistem çox yaxşıdır. İmtahanların bu şəkildə aparılması nəticələrin obyektivliyinə şübhə yaratmır. İndi düzgünlük, real qiymətləndirmə daha çoxdur. Heç bir haqsızlıqla üzləşmirik. Bildiyimizi yazırıq və yazdığımıza görə də qiymət alırıq.

- Doğrudur, şifahi imtahanlar tələbənin danışıq qabiliyyətinin yaxşılaşmasına kömək edirdi. Ancaq şifahi imtahanlar zamanı tələbələrə qarşı müəyyən haqsızlıq etmək mümkün idisə, yeni sistemdə bu mümkün deyil.

- Bəziləri deyirlər ki, əvvəlki qayda ilə imtahan verən tələbələr daha savadlı olurdu. Məncə, heç bir fərq yoxdur. Oxumasan, nə şifahi imtahandan keçə bilərsən, nə yazılı, nə də testlə. Bəlkə də şifahi imtahanda digər yollardan istifadə edib keçmək olardı, test üsulunda isə bu mümkün deyil. Güman eləməyin ki, işimiz asanlaşıb. Hər halda, 500-600 testi əzbərləmək də o qədər asan deyil.

**Ü.FƏRZƏLİYEVA**

BAŞ SPONSOR:
HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# Это интересно знать

◆ **Современные исследования показали, что** зевота очень полезна для здоровья. Это отражение древнего инстинкта, существующего у всех животных. Зевают даже лягушки! При зевке дыхательные пути человека максимально расширяются, мускулы расслабляются, затем наступает короткая, но очень приятная для организма потеря сознания. Зевание помогает человеку снять усталость, психическую нагрузку, "стряхнуть" стресс, обновит воздух в легких. Не стоит обижаться на зевающего супруга. Зевание - признак того, что с вами он расслабился и отдыхает, ему хорошо.

◆ **Во время 60-минутного пребывания в воде ваш организм "сжигает"** от 310 до 750 килокалорий. Выполняя танцевальные па, вы теряете до 500 килокалорий в час. Уборка квартиры "сжигает" в час определенные килокалории: работа с пылесосом отнимает 250, застилание постели - 300, легкая работа в огороде - 240, мытье посуды - 80, вытирание пыли - 120, а глажение - 150 килокалорий в час. Во время физической любви человеческий организм тратит до 40 килокалорий.

◆ **Стать веселее и уравновешеннее помогут** богатые калием бананы и авокадо.

◆ **Хорошему настроению способствует** рыба, особенно лосось, тунец и макрель. Можно взбодриться, употребляя в пищу помидоры, картофель, сою, орехи.

◆ **Гранатовый сок является** биостимулятором, обладает общеукрепляющим и тонизирующим действием. В Индии, например, его применяют для повышения работоспособности. Его можно пить по 1/2 стакана 3 раза в день за 30-40 минут до еды.

◆ **Народное средство от мозолей...** Надо перед сном распарить ноги в горячей воде, затем вытереть досуха и привязать к мозолям корку лимона с небольшим количеством лимонной мякоти на этой корке. Через 4-5 дней мозоль должна сойти полностью.

◆ **Встали не с той ноги?** Выпейте стакан оранжевого морковного или апельсинового сока на завтрак, накиньте оранжевый шарфик - и настроение улучшится.

◆ **Если укусила пчела, приложите к месту укуса:**

- кружок сырого лука (выведет токсины),
- ломтик огурца (охладит кожу и уменьшит припухлость).

◆ **Если вы курите пачку сигарет в день,** потребность в витамине С увеличивается вдвое (120 мг вместо 60).

◆ **Научитесь расслабляться при помощи несложной дыхательной гимнастики.** Сядьте поудобнее, медленно поднимите руки вверх и сделайте глубокий вдох. Теперь медленно и низко, как только возможно, опустите туловище и руки, глубоко выдохните. Упражнение повторяйте в течение 2-х минут. Вскоре Вы почувствуете прилив энергии.

◆ **Избавьтесь от второго подбородка:**

- Спите только на низкой подушке.
- Каждый день выполняйте специальные упражнения для шеи. Зажмите в зубах карандаш, выдвиньте вперед подбородок и рисуйте в воздухе круги, цифры или буквы от А до Я.

◆ **Регулярные втирания** лимонного сока в кожу головы помогают бороться с себореей.

◆ **Ухоженные зубы называют визитной карточкой человека.** Следите за их здоровьем и красотой. Не стоит немедленно чистить зубы после любой еды - тем более если вы ели фрукты, пили сок или сосали кисленькую конфетку: необходимо подождать хотя бы час. Иначе фруктовые кислоты при растирании их зубной щеткой могут повредить десны. Особую осторожность надо соблюдать после яблок, винограда, цитрусовых, слив, персиков и ананасов.

◆ **Грейпфрут...** Высокое содержание витаминов А, В, D, Р и С, и в особенности присущие только грейпфруту различные биогенные химические соединения, придают этому фрукту высокие диетические и целебные качества. Современная медицина рекомендует употреблять грейпфруты и тем, кто ослаб от долгой и изнурительной болезни, и тем, кто здоров, но чувствует переутомление. Содержащиеся в грейпфруте тонизирующие вещества повышают жизнедеятельность организма и способствуют восстановлению бодрости.



◆ **Дубовая кора** рекомендуется при жирных волосах и потливости ног. Две столовые ложки коры варят 30 минут в 0,5 л воды. Отвар втирают в кожу головы, протирают им ноги или добавляют в ванну для ног.

◆ **Одевайтесь в радостные тона.** Наденьте пуловер, блузку или жилет желтого цвета - и вы почувствуете себя гораздо лучше, чем в костюме серого оттенка. Желтый цвет настраивает на благодушный лад. Перед завтраком постелите на стол желтую скатерть, а в вазу поставьте несколько желтых цветов - и начало дня будет радостным.

◆ **Если вы чувствуете недостаток энергии,** ешьте гречневую кашу, овсяную, хлеб из муки грубого помола, укроп, чеснок, лук, редьку, клубнику, яблоки, вишню, орехи, яйца, баранину, кролика, брынзу, креветки, пейте чай, добавив в него лист черной смородины. Повышает мышечную силу и укрепляет организм прием цветочной пыльцы 1-2 раза в день перед едой в первой половине дня.

◆ **Если руки сильно потеют,** можно использовать ванночки с поваренной солью (1ч. ложка на литр воды) или уксусом (1 ст. ложка на литр воды), а также из отвара крепкого чая, дубовой коры, шалфея. Но надо учитывать: потная, холодная кожа рук может быть следствием нарушения деятельности нервной системы, т.е. сигналом того, что нужно обратиться к врачу.

◆ **Когда из носа идет кровь,** голову надо наклонить назад.

Чтобы остановить кровотечение, голову надо слегка наклонить вперед и зажать на пять-десять минут две или одну ноздрю. Наклон же головы назад усиливает течение крови и, кроме того, есть риск появления тошноты, так как кровь течет в горло.

◆ **Мешки под глазами легко устраняются, если** их появление не связано с каким-либо внутренним заболеванием (болезни почек, печени, хронические запоры). Помогают контрастные компрессы из отвара шалфея перед сном (1 чайн. ложка на 100 г кипятка, настоять 30 мин.). После снятия компрессов смажьте кожу камфорным кремом. Хорошо действуют теплые отвары из укропа, петрушки, настоя ромашки. Примочки из арники (15 капель настойки на четверть стакана воды) устраняют отечность через месяц после регулярного применения.

◆ **Круги под глазами и краснота век от усталости будут менее заметны, если** на несколько минут положить на глаза вату, смоченную в горячем крепком чае, и затем нанести на веки питательный крем.

◆ **Яблоки, как утверждают диетологи, могут защитить вас от рака лёгких.** Этому способствуют специфические компоненты, содержащиеся в них, которые относятся к группе флавоноидов. Кроме того, эти вещества снижают риск развития сердечно-сосудистых заболеваний.

◆ **Бессонница...** Очень хорошо помогает втирание растительного масла в затылочную ямку и растирание маслом одновременно 6-7 суставов, ладоней и пяток.

◆ **Бессонница...** Лук, употребляемый в значительном количестве перед сном, способствует хорошему крепкому здоровому сну. Для этого надо съедать его 1-2 головки перед сном.

*(Продолжение на стр.19)*

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - Az 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com

# Arif Babayev: «Savadlı həkimlər cəmiyyət üçün ən lazımlı insanlardır»

*(Əvvəli səhifə 13-də)*

Xeyirxah, insanlara canı yanan, rəhmi gələnləri sevirəm.

Bəzi adamlar var ki, əməli bəddir, amma gedir Məkkəyə, Həcc ziyarətindən gəlir, deyir, mən hacıyam. Belələri gələndən sonra da əməllərindən əl çəkmirlər. Amma elə insanlar da var ki, onlar Həccə gedənlərdən daha çox hacı adına layiqdir.

İstəyirəm cəmiyyətimizdə hər kəs öz adı ilə çağırılsın, hamı layiq olduğu yerdə olsun.

**- Ürəyinizdə yerinə yetməyən arzunuz qalıb?**

- Allah istədiyim hər şeyi mənə nəsib edib. Sənətimlə xalqın sevgisini qazanmışam, övladlarım, nəvələrim, evim var. Var olan çox şey var. Amma özümü tam xoşbəxt hiss edə bilmirəm. Çünki Qarabağım, Vətənim yoxdur, torpaqlarımız işğaldan azad olunmayıb. Qarabağ dərdi elə-belə yox, daxilimdə kök atmış çox böyük dərddir.



Mən Qarabağın gözəl guşəsində, Ağdamın Sarıhacılı kəndində doğulmuşam. Ata yurdum üçün qəribsəmişəm. Orada evimi-eşiyimi muğamla tikmişdim, onu bir günün içində viran qoydu ermənilər. Səsimi ordan gətirmişəm, ora aparmaq istəyirəm.

Bircə arzum qalıb, o da Qarabağın işğaldan azad olunduğu günü görməkdir. O günü görsəm, rahat, xoşbəxt gedə bilərəm o biri dünyaya. Mən o günün gələcəyinə, Qarabağın işğaldan azad olunacağına inanıram. Buna böyük ümidim var.

**- Səhiyyəmizin bugünkü vəziyyətini necə qiymətləndirirsiniz?**

